RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 8 (8887) CÜMƏ, 14 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Bərpaolunan enerji sektorunda TARİXİ HADİSƏ

## Azərbaycanda ən böyük külək elektrik stansiyasının təməli qoyuldu

Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlət başçısı tədbirdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Gülüstan sarayında Azərbaycanda inşa ediləcək yeni külək elektrik stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu, çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq bu gün artıq biz bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda, çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır.

Ardı 2-ci səh.



# Tarixin möhtəşəm təkrarı

14 yanvar 1982, Şuşa...



HİMAYƏDAR

14 yanvar 2021, Şuşa...



XİLASKAR

### *40 illik unudulmaz xatirə:*

### Heydər Əliyevin Şuşada güclü qara görə yoxuşda qalan avtomobilini gənclər çiyinlərində qaldırdılar

**... 1982-ci ilin yanvar ayının 14-də Ulu Öndər Heydər Əliyev Molla Pənah Vaqifin məqbərəsinin açılış mərasimində iştirak etmək üçün Şuşaya gəlmişdi. Mən o zaman Dağlıq Qarabağ Muxtar Vilayəti Daxili İşlər İdarəsinin rəis müavini vəzifəsində çalışırdım və tədbirdə ictimai təhlükəsizliyin qorunmasına bilavasitə rəhbərlik edirdim. Dağlıq Qarabağda erməni şovinizmini susduran Heydər Əliyevə vətəndaşlarımızın ehtiramı, rəğbəti o qədər güclü idi ki, bu görüşə kütləvi axın vardı.**

**Yaxşı xatirimdədir, həmin gün güclü qar yağmışdı. Heydər Əliyevi gətirən maşın Şuşanın girəcəyində, hərbi komissarlığın qarşısından qalxa bilmədi. Mən hüquq-mühafizə orqanlarının bir qrup əməkdaşı və ətrafdakı cavanlarla köməkləşib maşını əllərimizdə yoxuşdan qaldırıb düz yerdə qoyduq. Bununla, qarabağlı gənclər qətiyyəti ilə erməni millətçilərinə sipər olan ölkə rəhbərinə öz ehtiramlarını bildirirdilər...**

***Ramil USUBOV,***
***general-polkovnik***

*14 yanvar 1982-ci il, Şuşa...*

*Göydən lopa-lopa qar yağır, dağları, düzləri, meşələri bərq vuran ağappaq libasa bürüyür...*

*Neçə gündür ki, sevincqarışıq həyəcanla əziz himayədarının yolunu gözləyən Şuşa, əslində isə bütün Qarabağ təntənəli pişvaza hazırlaşırdı. O gün bütün qala əhalisi, digər rayonlardan gəlmiş qarabağlılar səmadan yağan bu bərəkət nurunun altında küçələrə, yollara axışmış, erməni məkrinin Şuşada kök atmasına imkan verməyən və öz əlləri ilə Azərbaycançılıq bayrağını qədim yurdumuza sancan Heydər Əlirza oğlu Əliyevi qarşılamağa çıxmışdı...*

*Həmin gün qarabağlı gənclər sürüşkən dik yollarla Ulu Öndər Heydər Əliyevin maşınını əllərinin üstündə Şuşaya, Qarabağın baş tacına qaldırmışdılar...*

*Düz 40 il əvvəl idi...*

*14 yanvar 2021-ci il, Şuşa...*

*Dağlarını, düzlərini, meşələrini ulduz kimi parlayan bəmbəyaz dona bürüyən Şuşa, xilaskarı ilə təntənəli görüşə hazırlaşırdı...*

*Könlündə azadlıq sevinci olan bu qədim şəhər ona qurtuluş bəxş edən, səmalarında Azərbaycanın üçrəngli müqəddəs bayrağını dalğalandıran Müzəffər Ali Baş Komandanla görüşməyin bəxtəvərliyi içində idi...*

*Qarabağın incisi ona bu xoşbəxtliyi ərməğan edən və Şuşaya Azərbaycan gənclərinin açdığı “Zəfər cığırı” ilə gələn müzəffər Lider İlham Heydər oğlu Əliyevi qarşılamağın coşqusunu yaşayırdı...*

*Bir il öncə idi...*

Bax: səh. 4

## «Biz ermənilər İlham Əliyevin şərtləri ilə artıq razılaşmalıyıq»

### Azərbaycan Prezidentinin son bəyanatları Ermənistanda böyük narahatlığa səbəb olub

Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində Ermənistanla bağlı səsləndirdiyi fikirlər İrəvanda da xüsusi diqqət mərkəzindədir.

Dövlət başçısının verdiyi açıq mesajlar erməni sosial şəbəkə istifadəçilərinin də nəzərindən qaçmadı.

Xəbər portallarının rusdilli versiyasında yayılan müsahibədən hissə-hissə açıqlamaların, videoçarxların təqdim olunaraq müzakirəyə çıxarılması məğlub ölkədə ictimai çaşqınlığın artıq xaosa çevrildiyini göstərir. Bu fonda ölkə ictimaiyyəti Sarkisyan-Koçaryan rejimindən sonra Paşinyanı da artıq Ermənistanın əsas bəlası saymağa başlayıb.

### “Paşinyan Əliyevə hansı üzlə cavab verəcək?”

Ermənilərin sosial şəbəkələrdəki statusları, şərhləri göstərir ki, onlar ölkələrinin məhvə doğru getməsi, İlham Əliyevin Ermənistan üzərində üstünlüyünün artması barədə ortaq rəydədirlər. Erməni istifadəçilər tərəfindən yer alan maraqlı status və şərhləri diqqətinizə çatdırırıq.

İrina Babayan adlı biri “İnstaqram”da Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi xəbərə maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib.

Ardı 9-cu səh.

## Mavi yanacağımız bol, ixrac infrastrukturumuz müasirdir

Azərbaycan etibarlı təchizatçıdır. Uzun illər ərzində neft təchizatçısı olaraq sınanmış tərəfdaş kimi şöhrət tapan ölkəmiz indi artıq həm də qaz ixracatçısı kimi tanınır. Belə ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır və onun bu statusu 2020-ci ilin son günündə “Cənub qaz qəhlizi”nin tam istifadəyə verilməsi ilə daha da möhkəmlənib.



Bax: səh. 7

## Azərbaycan istənilən təhdidi dərhal məhv edəcək

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə tələbatını idxal hesabına ödəyən Azərbaycanın cəmi 30 il müddətində iqtisadiyyatına 300 milyard dollar investisiya qoyulması, xarici ölkələrə yatırımlar etməsi, valyuta ehtiyatlarını 63 milyard dollara yüksəltməsi hər ölkəyə nəsib olmayan tarixi zəfərdir. Dünya artıq müstəqil Azərbaycanı qlobal layihələr həyata keçirən, islahatlar aparan, regional əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən, eyni zamanda güclü orduya sahib qüdrətli ölkə olaraq qəbul edir. İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra regionda yaranan yeni reallıqlar və bölgədə diktənin Azərbaycana məxsus olması bir daha təsdiq edir ki, ölkəmiz Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktorudur.

Müharibədən sonra 2021-ci ildə bu istiqamətdə çox böyük proqram icra edilməyə başlanılıb. Müharibədən çıxmış bir ölkə üçün bu, ən genişmiqyaslı proqramdır. Bu proqramı fərqləndirən odur ki, heç kimin yardımı olmadan Azərbaycanın öz gücü hesabına həyata keçirilir. İlkin olaraq Qarabağda və Şərqi Zəngəzurda minalardan təmizlənərək elektrik təsərrüfatı yaradılıb, yollar çəkilib.

Bax: səh. 5

# Bərpaolunan enerji sektorunda

# TARİXİ HADİSƏ

## Azərbaycanda ən böyük külək elektrik stansiyasının təməli qoyuldu




## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

Mən şadam ki, bizim bərpaolunan bu böyük enerji layihəsinin icraçısı və investoru qardaş Səudiyyə Ərəbistanının şirkətidir. Bildiyiniz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında çox sıx dostluq və qardaşlıq münasibətləri vardır. Biz müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsində fəal çalışmışıq. Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, Vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızdakı dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, bütün Azərbaycan xalqı Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərəbistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla, ümumiyyətlə, diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Eyni zamanda, iqtisadiyyatın müxtəlif sahələrində fəal əməkdaşlıq edirik. Pandemiyaya qədər Səudiyyə Ərəbistanından gələn turistlərin sayı ildən-ilə artırdı. Ümid edirəm ki, pandemiya başa çatandan sonra biz yenə də Səudiyyə Ərəbistanının vətəndaşlarını, öz qardaşlarımızı Azərbaycanda görəcəyik.

İqtisadi sahədə çox böyük perspektivlər var. Təbii ki, biz birlikdə energetika sahəsində OPEC+ formatında fəal çalışırıq. Deyə bilərəm ki, OPEC+ formatı yaradılandan bugünə qədər Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əməkdaşlığında xüsusi rol oynamışdır. Bu formatda iştirak edən digər ölkələrlə bərabər biz neftin qiymətinin sabitləşməsinə nail ola bilmişik.

Bu stansiyanın investoru tanınmış və bu sahədə böyük təcrübəsi olan Akvopao şirkətidir. Şirkət haqqında çox danışmaq olar, təkcə onu qeyd etməliyəm ki, bu, enerji sahəsində dünyanın ən böyük şirkətidir. Mənə verilən məlumata görə, şirkət tərəfindən inşa edilmiş stansiyaların enerji istehsalı gücü 42 min meqavatdan çoxdur. Yəni, təsəvvür etmək o qədər də çətin deyil və şadam ki, bu şirkət Azərbaycana da maraq göstərir.

Əlbəttə ki, burada bizim ikitərəfli dövlətlərarası əlaqələrimizin rolu çox böyükdür, eyni zamanda, son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, gözəl investisiya iqlimi, ölkəmizin uğurlu inkişafı, ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, təhlükəsizlik - bütün bu amillər təbii ki, hər bir investor üçün önəmli rol oynayır. Bir də ki, Azərbaycanda xarici investisiyaların qorunması da ən yüksək səviyyədədir. Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətlidir və dəyərlidir. Bu möhtəşəm Gülüstan sarayında 1994-cü ildə imzalanmış Əsrin müqaviləsi artıq uzun illərdirki icra edilir və o müqavilədə bir söz, hətta bir vergül belə dəyişdirilməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu sərmayə qoyuluşu davam edir. Xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda, pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalması - bütün bunlar mənfi amillərdir. Amma buna baxmayaraq, qardaş ölkənin şirkəti Azərbaycana böyük həcmdə investisiya qoyuluşuna qərar verib, bu qərarı qəbul edib və bu gün biz Xızı rayonunda inşa ediləcək 240 meqavat gücündə külək elektrik stansiyasının təməlini qoyuruq. Onu da bildirməliyəm ki, Azərbaycan müstəqillik dövründə uzun illər ərzində öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu dörd məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın ixracı və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir. Ancaq onu da bilməliyik ki, ölkə sürətlə inkişaf edir. Keçən ilin yekunlarına görə, bizim neft və qazla bağlı olmayan, yəni qeyri-neft sənayemiz təxminən 20 faiz artıbdır. Ölkə əhalisi artır, tələbat artır. Ona görə təbii ki, biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq. Bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir. Onu da bildirməliyəm ki, işğaldan azad edilmiş ərazilərdə, Cəbrayıl rayonunda hazırda böyük günəş elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaq. Deyə bilərəm, aparılmış dəqiq təhlil nəticəsində bəlli oldu ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalı mümkündür. Əlbəttə, biz çox istərdik ki, dost ölkələrin investorları, şirkətləri bu imkanları da araşdırsınlar və bizimlə bərabər bu böyük layihələrə start versinlər.

Onu da bildirməliyəm ki, Azərbaycan həm daxili tələbatı tam ödəyir, eyni zamanda, bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Qonşu ölkələrlə bizi birləşdirən yüksəkgərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilər. Çünki region ölkələrində və eyni zamanda, Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, biz, eyni zamanda, kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Eyni zamanda dünyanın, demək olar ki, gündəliyinin ön sıralarında olan “Yaşıl gündəliyi” də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini “yaşıl enerji” zonası elan etmişik. Artıq bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var.

Bir sözlə, bu külək elektrik stansiyasının yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, gözəl göstəricidir. Digər potensial investorlar üçün də bir siqnaldır ki, onlar da vaxt itirmədən müəyyən addımlar atsınlar. Onu da bildirməliyəm ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir. Həm ölkəmizdə sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yəni, həqiqəti əks etdirən fikirlər, siyasətimizin proqnozlaşdırılması və eyni zamanda, güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı var. Yəni, bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir.

Mən tam əminəm ki, hazırda ölkəmizdə inşa ediləcək bu ən böyük bərpaolunan enerji stansiyasının açılışından sonra və bəlkə də açılışına qədər biz digər investisiya layihələrini icra etməyə başlayacağıq. O ki qaldı bu stansiyanın açılışına, ümid edirəm, çox vaxt keçmədən biz bu böyük enerji layihəsinin açılışını birlikdə qeyd edəcəyik.

Bir daha sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, dediyim kimi, yaxın gələcəkdə bu stansiyanın açılışını birlikdə qeyd edək. Sağ olun.

*Ardı 3-cü səh.*

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Gülüstan sarayında Azərbaycanda inşa ediləcək yeni külək elektrik stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu, çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir.

Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu dörd məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın ixracı və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir.



# Bərpaolunan enerji sektorunda

# TARİXİ HADİSƏ

## Azərbaycanda ən böyük külək elektrik stansiyasının təməli qoyuldu







*Əvvəli 2-ci səh.*

Sonra Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, **şahzadə Əbdül Əziz bin Salman Əl-Səud** çıxış edərək deyib:

- Cənab Prezident, icazə verin, çıxışıma onunla başlayım ki, Sizə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını çatdırım. Onlar Azərbaycan Respublikasına davamlı uğur diləyir, Azərbaycanla münasibətlərin daha da möhkəmlənməsində Səudiyyə Ərəbistanı Krallığının maraqlı olduğunu bir daha vurğulayırlar. Bu gün burada təməlqoyma mərasimində Sizinlə olmaqdan çox məmnunam. Zati-aliləri cənab Prezident, gözəl Bakı şəhərində bizi bu qədər səmimi qəbula görə icazə verin, Sizə səmimi təşəkkürümü bildirim.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdüləziz bin Salman əl Səud Prezident İlham Əliyevin rəhbərlik keyfiyyətləri sayəsində OPEC+ çərçivəsində əldə edilən uğurların əhəmiyyətini vurğuladı. O, son bir neçə il ərzində dünya neft sənayesində və OPEC+ formatında ölkələrimiz arasında güclü müttəfiqlik, tərəfdaşlıq və dostluq əlaqələrinin qurulduğunu qeyd etdi. Nazir azərbaycanlı həmkarı ilə də bu sahədə fəal iş apardıqlarını bildirərək dedi:

- Azərbaycan və Səudiyyə Ərəbistanı arasında uzun müddət ərzində güclü diplomatik və iqtisadi münasibətlər olub. Krallıq 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Bu münasibətlər müasir Azərbaycan dövlətinin banisi, Zati-aliləri mərhum Prezident Heydər Əliyevin 1994-cü ildə Ər-Riyada səfəri ilə daha da gücləndirilib. Allah ona rəhmət eləsin!

Ölkələrimiz arasında bir çox oxşarlıqlar var. Hər iki ölkə dinamik və qabaqcıl ölkə olaraq, iqtisadiyyat və cəmiyyətimizin müasirləşdirilməsi və transformasiyası yoluna qədəm qoyublar. Odlar yurdu Azərbaycan birmənalı şəkildə müasir karbohidrogen sənayesinin beşiyi olduğunu iddia edə bilər, çünki hələ XIX əsrdə burada quyulardan neft hasil edilirdi. Hazırda biz bu gün bütün dünya ilə birgə iqlim dəyişikliyinə qarşı mübarizənin aparılmasında və qlobal istiləşmənin fəsadlarının qarşısının alınmasında bir araya gələrək ortaq və mühüm marağa sahibik. "ACWA Power" 2030-cu ilə qədər Səudiyyə Ərəbistanında elektrik enerjisinə olan daxili tələbatın 50 faizini məhz bərpaolunan enerji mənbələri sayəsində təmin etmək üçün külək və günəş enerjisi potensialını artıraraq Krallığımızın bərpaolunan enerji sahəsində təşəbbüslərinin önündə olub. Bu gün qeyd etdiyimiz kimi, Azərbaycana yatırılan 300 milyon dollara yaxın sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. Bildiyiniz kimi, bu enerji stansiyasının gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Eyni zamanda, 220 milyon kubmetr qaza qənaət olunacaq və biz il ərzində 400 min ton karbon qazının atmosferə atılmasını azaldacağıq. Bununla biz Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə vermiş olacağıq.

Əlavə olaraq "ACWA Power" şirkəti Azərbaycanda dənizdə külək enerjisi stansiyasının tikilməsi layihəsi ilə əlaqədar anlaşma memorandumu imzalayacaq ki, onun ümumi gücü təxminən 500 meqavat olacaq. İlkin mərhələdə külək enerjisindən istifadə potensialı araşdırılaraq yaşıl karbohidrogenlərin hasil edilməsindəki mümkün tətbiqi öyrəniləcək.

Cənab Prezident, bu gün böyük fərəh hissi ilə qeyd edirəm ki, biz iki nazirlik olaraq birgə çalışırıq və bu rübün sonuna qədər iki nazirlik arasında bir çox aspektlər üzrə əməkdaşlığımızın irəli aparılması yolları ilə əlaqədar olaraq, istər neft-qaz sahəsi, neft-kimya məhsulları, bərpaolunan enerji, səmərəlilik, karbon tullantılarının atmosferə atılmasının azaldılması üzərində qurulmuş iqtisadiyyat üzrə memorandumun hazırlanmasına ümid edirik. Əməkdaşlıq üçün ümumi istəyin olacağı təqdirdə, biz hər bir aspekt üzrə işbirliyi qurmalıyıq. Bu, ölkə və onun xalqı üçün, bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu ölkənin rəhbərliyi ilə əməkdaşlıq bizim üçün mühüm əhəmiyyətə malikdir. İki müsəlman ölkəsi arasında uzun məsafənin olmasına baxmayaraq, onların öz planlarına görə bir-birinə bu qədər yaxın olmasını görməkdən yaxşı nə ola bilər. Bu, ölkələrimizi ayıran məkan və məsafələrdən asılı olmayaraq, məhz onların rəhbərliyinin uzaqgörənliyi, iradəsi ilə izah olunur. Bununla belə, ölkələrimizi birləşdirən amil öz xalqlarının rifahını yaxşılaşdırmaq kimi məsələlərdən ibarət ümumi gündəlikdir. Sağ olun, cənab Prezident.

❖ ❖ ❖

Mərasimdə Azərbaycanda bərpaolunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirilib.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və şahzadə Əbdül Əziz bin Salman Əl-Səud stansiyanın təməlini qoyublar.

# Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının energetika nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident **İlham Əliyev** dedi:

- Cənab nazir, bir daha xoş gəlmisiniz. Mən həqiqətən çox məmnunam ki, siz gəlib bizim ölkəmiz, tərəfdaşlığımız, qardaşlıq münasibətlərimiz üçün mühüm olan bu tədbirdə iştirak etməyə vaxt tapmısınız. Bir daha sizdən Əlahəzrət Krala və Əlahəzrət vəliəhd şahzadəyə ən xoş salamlarımı çatdırmağı xahiş etmək istərdim.

Mən sizin ölkənin rəhbərləri ilə görüşlərimi və qardaş Səudiyyə Ərəbistanına çoxsaylı səfərlərim zamanı mənə göstərilən böyük qonaqpərvərliyi xatırlayıram. Çıxışımda qeyd etdiyim kimi, işğal illərində Səudiyyə Ərəbistanının Azərbaycana göstərdiyi davamlı dəstəyə görə minnətdarlığımı bildirmək istərdim. Biz bunu həqiqətən də yüksək qiymətləndiririk və əsl qardaşlıq, həmrəylik göstəricisi və həqiqi dəstək göstəricisi hesab edirik. Əlbəttə ki, bizim beynəlxalq təşkilatlarda, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında torpaqlarımızın işğalı ilə bağlı ədalətin bərpasına yönəlmiş birgə səylərimiz Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Torpaqlarımızın işğaldan azad olunması indi ölkə üçün yeni imkan, regionda nəhəng geosiyasi dəyişiklikdir. Bizim İkinci Qarabağ müharibəsindəki Qələbəmiz regional əməkdaşlıq, o cümlədən elektrik enerjisi istehsalı, xüsusilə bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır. Mən artıq planlarımız, potensial barədə danışdım. Hesab edirəm ki, biz artıq bu mühüm infrastruktur layihəsinin icrası zamanı gələcəyə baxaraq, nəhəng potensialımızdan istifadə edərək maksimal dərəcədə səylərimizin necə əlaqələndirilməsini nəzərdən keçirə bilərik. Çox şadam ki, bizim nazirlə sizin yaxın münasibətləriniz var. O, mənə OPEC+ formatında və ikitərəfli əlaqələr sahəsində sizin təmaslarınız haqqında müntəzəm olaraq məlumat verir.

Mən investorları cəlb etmək məqsədimizə nail olduğumuzu yüksək qiymətləndirirəm və bu investorun bu sahədə dünyada ən aparıcı şirkətlərdən biri və qardaş ölkədən olması məni şəxsən sevindirir. Bu, bizim üçün və gələcək əməkdaşlığımız üçün çox önəmlidir. Əminəm ki, sizin bizi ziyarət etmək üçün daha çox vaxtınız olacaq. Qeyd etdiyiniz kimi,bu, sizin Azərbaycana ilk səfərinizdir. Ümidvaram ki, biz sizi daha da çox görəcəyik. Bir daha xoş gəlmisiniz.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səud ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini dedi. Qonaq özünün və rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda fəal çalışdıqlarını vurğulayaraq qarşılıqlı əməkdaşlığın daha da genişlənəcəyini bildirdi. Əbdül Əziz bin Salman Əl-Səud yaxın vaxtlarda daha geniş əlaqələri əks etdirən əməkdaşlıq müqaviləsi layihəsinin təqdim olunacağına ümidvarlığını ifadə etdi.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri əlaqələrimizin uğurla inkişaf etdiyini bildirərək "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasiminin əhəmiyyətini vurğuladı, səmərəlilik, bərpaolunan enerji mənbələri və digər aspektlər üzrə baxışlarımızın üst-üstə düşdüyünü məmnunluqla bildirdi.

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, №11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, №11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092) 164.1.51-ci maddəsində "2 il" sözləri "3 il" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

## Baş nazir Əli Əsədov ilə Qazaxıstanın Baş naziri Alixan Smailov arasında telefon danışığı olub

Yanvarın 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Qazaxıstan Respublikasının yeni təyin olunmuş Baş naziri Alixan Smailov arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov A.Smailovu Qazaxıstan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, qarşıdakı fəaliyyətində ona uğurlar arzulayıb.

Danışıq zamanı Azərbaycan-Qazaxıstan dostluq və əməkdaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafı yüksək qiymətləndirilərək əlaqələrin birgə səylərlə bundan sonra daha da möhkəmlənəcəyinə və genişlənəcəyinə ümidvarlıq ifadə olunub.

Azərbaycanın son günlər qardaş Qazaxıstanda baş verən hadisələri narahatlıqla izlədiyi bildirilib, vəziyyətin tezliklə normallaşacağına əminlik ifadə edilib.

Baş nazir Ə.Əsədov Qazaxıstandakı hadisələr nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar A.Smailova başsağlığı verib.






# 2022-ci il "Şuşa ili"dir

## 40 illik unudulmaz xatirə:

## Heydər Əliyevin Şuşada güclü qara görə yoxuşda qalan avtomobilini gənclər çiyinlərində qaldırdılar









*...1982-ci il yanvar ayının 14-də Ulu Öndər Heydər Əliyev Molla Pənah Vaqifin məqbərəsinin açılış mərasimində iştirak etmək üçün Şuşaya gəlmişdi. Mən o zaman Dağlıq Qarabağ Muxtar Vilayəti Daxili İşlər İdarəsinin rəis müavini vəzifəsində çalışırdım və tədbirdə ictimai təhlükəsizliyin qorunmasına bilavasitə rəhbərlik edirdim. Dağlıq Qarabağda erməni şovinizmini susduran Heydər Əliyevə vətəndaşlarımızın ehtiramı, rəğbəti o qədər güclü idi ki, bu görüşə kütləvi axın vardı.*

*Yaxşı xatirimdədir, həmin gün güclü qar yağmışdı. Heydər Əliyevi gətirən maşın Şuşanın girəcəyində, hərbi komissarlığın qarşısından qalxa bilmədi. Mən hüquq-mühafizə orqanlarının bir qrup əməkdaşı və ətrafdakı cavanlarla köməkləşib maşını əllərimizdə yoxuşdan qaldırıb düz yerdə qoyduq. Bununla qarabağlı gənclər qətiyyəti ilə erməni millətçilərinə sipər olan ölkə rəhbərinə öz ehtiramlarını bildirirdilər...*



Ulu Öndər hələ ötən əsrin 60-cı illərində DTK-da rəhbər vəzifələrdə çalışarkən Qarabağda güclənən erməni şovinizminə, millətçi meyillərə qarşı kəskin mübarizə aparırdı. Ancaq 70-ci illərdə artıq ölkə rəhbəri kimi bu prosesi daha düzgün strateji hədəflər və dəqiq taktiki həmlələrlə həyata keçirməyə başladı. Moskvadakı havadarlarının dəstəyinə baxmayaraq, vilayətin şovinist ünsürləri, o cümlədən rəhbər heyət administrativ postlardan kənarlaşdırıldı, Azərbaycanın mütləq siyasi-inzibati iradəsi ilə hesablaşan erməni kadrlar irəli çəkildi. Bununla bərabər, bölgənin dövlət qurumlarında, hüquq-mühafizə və təhlükəsizlik orqanlarında azərbaycanlıların təmsil olunması xeyli artdı. Dağlıq Qarabağ tam olaraq respublikanın mərkəzi hakimiyyətinin təsir dairəsinə qaytarıldı. Vilayətdə yaşayanların demoqrafik tərkibində azərbaycanlıların artımı dinamik hal aldı, bölgənin sosial-iqtisadi inkişafı, abadlıq-quruculuq prosesi intensivləşdi, mühüm sosial infrastrukturlar yaradıldı və davamlı təkmilləşdirildi. Xankəndini respublikanın paytaxtı ilə birləşdirən dəmir yolu xəttini çəkdirməklə Heydər Əliyev Dağlıq Qarabağın Azərbaycanın digər regionları ilə bağlılığını yaratdı və onu daim möhkəmləndirdi.

Necə ki bu gün Müzəffər Ali Baş Komandan onilliklərdən sonra Qarabağı Azərbaycanın suveren hüquqları çərçivəsinə qaytardı, eləcə də Heydər Əliyev ötən əsrin 70-80-ci illərində artıq itirilməkdə olan Dağlıq Qarabağı Azərbaycana qaytarmışdı.

Qarabağın tək coğrafi deyil, həm də mənəvi-siyasi yüksəkliyi olan, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın azad olunmasını xalqa bəyan edərkən möhtərəm dövlət başçısı bu qələbəni Ümummilli Liderin vəsiyyətinin həyata keçməsi kimi dəyərləndirdi. Həm də qələbə müjdəsini Mehriban xanım Əliyeva ilə birgə Ulu Öndərin məzarını ziyarət edərək bütün dünyaya çatdırdı. Cənab İlham Əliyevin Sərkərdəliyi ilə qazanılan Böyük Zəfər həqiqətən də Heydər Əliyev ideallarının təntənəsi, daha bir taleyüklü arzusunun gerçəkləşməsidir.

Ali Baş Komandanın müəllifi olduğu bu Zəfər tariximizin ikinci Xilaskarlıq, Qurtuluş missiyasıdır. 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini, müstəqillyini dağılıb məhv olmaqdan qorudu, ölkəmizə və xalqımıza qurtuluş bəxş etdi. Eynilə Prezident İlham Əliyev də 2020-ci ilin noyabrında Şuşanın timsalında Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edib, bu ərazilərə, ümumiyyətlə isə, vətənimizə və millətimizə başucalığı, xilas, qurtuluş bəxş etdi.

Qarabağ indi ötən əsrin 70-80-ci illərində onu yenidən quran, inkişaf etdirən Ulu Öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə ehtiramla ucaldılır. Hörmətli Mehriban xanım Əliyevanın böyük fədakarlıqları ilə Ağdamdan Kəlbəcərə, Füzulidən Şuşaya, Tuğdan Azıxa qədər bütün məkanlarda onlarca tarixi, mədəniyyət və mənəviyyat abidələrimiz bərpa olunur, yenidən həyata qaytarılır. Bu baxımdan Prezident İlham Əliyevlə yanaşı, hörmətli Mehriban xanım Əliyevanı da haqlı olaraq Qarabağın və Şərqi Zəngəzurun baş memarları adlandırmaq olar.

***General-polkovnik Ramil USUBOVun "Azərbaycan" qəzetinə müsahibəsindən***

# Tarixin möhtəşəm təkrarı







*14 yanvar 1982-ci il, Şuşa...*

*Göydən lopa-lopa qar yağır, dağları, düzləri, meşələri bərq vuran ağappaq libasa bürüyür...*

*Neçə gündür ki, sevincqarışıq həyəcanla əziz himayədarının yolunu gözləyən Şuşa, əslində isə bütün Qarabağ təntənəli pişvaza hazırlaşırdı. O gün bütün qala əhalisi, digər rayonlardan gəlmiş qarabağlılar səmadan yağan bu bərəkət nurunun altında küçələrə, yollara axışmış, erməni məkrinin Şuşada kök atmasına imkan verməyən və öz əlləri ilə Azərbaycançılıq bayrağını qədim yurdumuza sancan Heydər Əlirza oğlu Əliyevi qarşılamağa çıxmışdı...*

*Həmin gün qarabağlı gənclər sürüşkən dik yollarla Ulu Öndər Heydər Əliyevin maşınını əllərinin üstündə Şuşaya, Qarabağın baş tacına qaldırmışdılar...*

*Düz 40 il əvvəl idi...*

---

*14 yanvar 2021-ci il, Şuşa...*

*Dağlarını, düzlərini, meşələrini ulduz kimi parlayan bəmbəyaz dona bürüyən Şuşa xilaskarı ilə təntənəli görüşə hazırlaşırdı...*

*Könlündə azadlıq sevinci olan bu qədim şəhər ona qurtuluş bəxş edən, səmalarında Azərbaycanın üçrəngli müqəddəs bayrağını dalğalandıran Müzəffər Ali Baş Komandanla görüşməyin bəxtəvərliyi içində idi...*

*Qarabağın incisi ona bu xoşbəxtliyi ərməğan edən və Şuşaya Azərbaycan gənclərinin açdığı "Zəfər cığırı" ilə gələn müzəffər Lider İlham Heydər oğlu Əliyevi qarşılamağın coşqusunu yaşayırdı...*

*Bir il öncə idi...*







### Möhtəşəm hadisələr: eyni zamanda, eyni məkanda

Bəli, tarix təkrar olunurdu. Möhtəşəm hadisələr eyni zamanda, eyni məkanda elə illər əvvəl olduğu kimi təkrarlanırdı. Vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə mədəni, mənəvi ruhu özünə qaytarılan Şuşa yenidən Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bərpa olunur, əvvəlki tarixi əzəmətinə qovuşurdu...

Şuşada Heydər Əliyev tərəfindən görülən müstəsna işlərin şahidi və həm də indi mədəniyyət paytaxtımızda aparılan möhtəşəm quruculuğun bilavasitə həyata keçirəni Prezident İlham Əliyev düz 39 ildən sonra, 2021-ci ilin 15 yanvarında Şuşaya səfər etmiş, illər əvvəl açılışı Heydər Əliyev tərəfindən keçirilən və işğal zamanı erməni vandallarının dağıtdığı Vaqifin tarixi məqbərəsinin qarşısında çıxış edərək o günləri belə xatırlamışdı: "...Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü Ulu Öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı".

Prezident İlham Əliyev xüsusi vurğuladı ki, xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətinin əlaməti idi.

### Heydər Əliyev Şuşaya Azərbaycan xalqının qəhrəmanlıq qalası kimi baxırdı

Ulu Öndər Heydər Əliyev hələ sovet dövründə Qarabağda, Şuşada milli ruhun yüksəlməsi üçün mühüm addımlar atır, bu istiqamətdə əməli işlər görürdü. Ümummilli Lider həmin dövrdə erməni milliyətçilərinə qarşı qətiyyətli mübarizə aparır, onların minbir fitnə ilə qədim torpaqlarımızı Azərbaycandan qopararaq Ermənistana birləşdirmək kimi məkrli niyyətlərinin həyata keçirilməsinə imkan vermirdi.

Qarabağın tarixinə, mədəniyyətinə, incəsənətinə, iqtisadi inkişafına mükəmməl şəkildə bələd olan Heydər Əliyev hər vəchlə çalışırdı ki, xain düşmənlərin göstərdikləri mənfur çabalara rəğmən bu bölgə hərtərəfli inkişaf etsin. Xüsusilə də Şuşanın inkişafına çox böyük diqqət və qayğı göstərir, Azərbaycanın qədim mədəniyyət mərkəzi olan bu şəhərimizə zəngin tarixi abidə, eyni zamanda Azərbaycan xalqının qəhrəmanlıq qalası kimi baxırdı.

Buna görə idi ki, 1970-ci illərdə Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə xüsusi qərarlar qəbul edilmişdi. Qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri, məscidləri bərpa edilmiş, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana, ayrı-ayrı inzibati binalar tikilmişdi. Həmçinin Qarabağın incisi olan Şuşa çox mötəbər bir statusa qaldırılmış, ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. Həmin vaxtlar Sovet İttifaqının çox yerlərindən insanlar Şuşaya istirahətə gəlir, eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə də əyani tanış olurdular.

Heydər Əliyevin təşəbbüsü ilə keçmişdə Şuşada nə yaranmışdısa, onlar təzələnir, bərpa edilir, Şuşanı daha da zənginləşdirmək, onun tarixini daha da əyaniləşdirmək üçün yeni möhtəşəm işlər həyata keçirilirdi.

### Vaqifə onun şanına layiq məqbərə ucaldılmalıdır

Özünün xatirələrində də yer aldığı kimi, klassik ədəbiyyatı dərindən bilən və yüksək qiymətləndirən böyük şəxsiyyət Heydər Əliyev hələ 1967-ci ildə Şuşada olarkən görkəmli şair Vaqifin məzarını ziyarət etmək istəmiş, lakin məzarı tapa bilməmişdi. Buna görə də Ulu Öndərin göstərişi ilə məzar tapılmış və Heydər Əliyev bərbad halda olan dağılmış məzarı ziyarət etmişdir. Sonradan nitqlərinin birində bu məzarın Vaqifə layiq olmadığını vurğulamışdı və qəti qərar vermişdi. Bildirmişdi ki, böyük şairə onun şanına layiq məqbərə ucaldılmalıdır.

1980-1981-ci ildə Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üstündə möhtəşəm abidə, türbə ucaldılmışdı. Memar A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında 1977-ci ildə inşasına başlanan məqbərə Şuşa şəhərinin məşhur yerində - Cıdır düzünə yaxın bir ərazidə tikilmişdir. Bu məqbərə dördkünc quruluşa malik idi və mərmərlə bəzədilmişdi. Vaqifin möhtəşəm abidəsinin təntənəli açılışı isə 1982-ci il yanvar ayının 14-də Ulu Öndərin iştirakı ilə baş tutmuşdu...

Qarlı, şaxtalı bu qış günündə Şuşaya ailəsi, Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimləri ilə birlikdə səfər edən Ulu Öndərin bu addımı həm də onun Şuşanın tarixinə, mədəni irsinin qorunmasına göstərdiyi xüsusi diqqəti bir daha nümayiş etdirirdi.

### Heydər Əliyev: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir"

1982-ci ildə Ümummilli Lider Heydər Əliyev Şuşaya səfəri zamanı həm də orada Vaqifin məqbərəsi ilə yanaşı, Poeziya Evinin də açılışında və orada keçirilən Vaqif Poeziya Günlərində iştirak etmişdi. Heydər Əliyev həmin vaxt Vaqif Poeziya Günlərinin keçirilməsi barədə göstəriş vermişdi. Bununla da hər il avqust ayında Vaqif Poeziya Günləri keçirilirdi. Şuşada olarkən Ulu Öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla da tanış olmuş, onların qorunmasına dair tövsiyələrini vermişdi.

Bir ildə ikinci dəfə, 1982-ci ilin avqustunda da Şuşaya gələn Heydər Əliyevin iştirakı ilə şair Xurşidbanu Natəvanın abidəsinin açılışı həyata keçirilmişdi.

Yuxarıda toxunduğumuz qısa nümunələrdən də aydın görmək mümkündür ki, Şuşa Ümummilli Lider Heydər Əliyev üçün yalnız Azərbaycanın hansısa şəhəri yox, ümumilikdə azərbaycançılığın, milli ruhun, tarixi, mənəvi dəyərlərin çuğlaşdığı müqəddəs məkan idi. Heydər Əliyev deyirdi ki, Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir: "Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

### Şuşada şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir

Vaxtilə Şuşanın dirçəldilməsinin uğurlu təməlini qoyan Heydər Əliyevin müstəsna ənənəsini bu gün onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev uğurla aparır. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilib, illərdən sonra Şuşada "Xarıbülbül" musiqi festivalı keçirilib, Vaqif Poeziya Günlərində Vaqifin bərpa olunan əzəmətli mavzoleyinin qarşısında ecazkar muğamımızın sədaları, qəlbləri söz çeşməsi kimi çağlayan şairlərimizin şeirləri ilhamlanaraq dağlarda-daşlarda əks-səda verərək, dalğa-dalğa Tanrı dərgahına ucalıb.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb. Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir.

Bu il isə Şuşa yaradılışının 270 illiyini təntənə ilə qeyd edəcək, tarixi ilə bir daha qürurlanacaq. Prezident İlham Əliyevin sərəncamı ilə 2022-ci ili möhtəşəm "Şuşa ili" kimi qeyd edəcəyik. Sərəncamda da vurğulandığı kimi, qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Necə ki, 2021-ci ilin avqustunda Şuşada Vaqif Poeziya Günlərinin açılışında, elə Vaqifin bərpa edilən möhtəşəm abidəsinin qarşısında çıxışı zamanı İlham Əliyev demişdi: "Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik".

Bəli, İlham Əliyev Şuşanı işğaldan azad edərək müqəddəs ata nəsihətinə əməl etdiyi kimi, indi də onu əvvəlki təmtərağına, əzəmətinə qaytararaq Ulu Öndər Heydər Əliyevin ruhunu da şad edir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## “Babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm”

*- Cənab Prezident Zəngəzurla bağlı biz bilirik ki, Sizin şəxsi tarixçəniz də var. Siz Naxçıvana səfəriniz zamanı öz əcdadlarınızı ziyarət etdiniz. Şuşa azad olunanda Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməyinizi bunun davamı hesab edə bilərikmi?*

- Bəli, belədir. Mən təşəkkür edirəm ki, siz bunu belə qəbul etdiniz, bəli. Məhz bu idi mənim ürəyimdə olan fikirlərim və ürəyimdə olanları mən hələ ki, deməyəcəyəm. Amma babamın məzarını ziyarət etməklə eyni zamanda ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir.

Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm.

***Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsindən***



## Naxçıvan davamlı inkişaf yolundadır

*Geridə qoyduğumuz 2021-ci il respublikamız üçün mühüm nailiyyətlər dövrü kimi tarixə qovuşdu. Təbii ki, ötən ilin ən uğurlu hadisəsi, ilk növbədə, işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən bərpa və yenidənqurma işləri və Prezident İlham Əliyevin Vətən müharibəsindəki Zəfəri diplomatiya meydanında davam etdirməsi oldu.*

O cümlədən pandemiyanın hələ davam etməsinə, koronavirusun yeni ştamlarının meydana çıxmasına rəğmən Azərbaycan iqtisadiyyatı ötən ili müsbət makroiqtisadi göstəricilərlə başa vurdu.

Bütün bunlar bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi, Prezident İlham Əliyevin qətiyyətlə və layiqincə davam etdirdiyi inkişaf və yüksəliş siyasəti respublikamızın qarşısında dayanan bütün məqsədlərin uğurla reallaşmasını təmin edir. Xüsusilə qeyd edilməlidir ki, Vətən savaşındakı Zəfər, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad olunması cəmiyyətimizi daha yüksək əhvali-ruhiyyəyə köklədi. Bu isə respublikamızdakı inkişaf proseslərinə pozitiv təsir göstərdi. Əsas qeyd olunmalı məsələlərdən biri də respublikamızın regionlarının inkişafıdır. Bu gün hansı şəhərə, hansı rayona üz tutsaq, tərəqqinin, abadlıq və yenidənqurma işlərinin şahidi olarıq. Bu sırada Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı istiqamətində əldə olunan uğurlar, burada həyata keçirilən quruculuq və abadlıq işləri həm genişmiqyaslı, həm də olduqca qürurvericidir. Bəli, vaxtilə Ulu Öndər Heydər Əliyevin qoruduğu, alınmaz qalaya çevirdiyi Naxçıvan blokada şəraitində olmasına baxmayaraq, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində sürətlə inkişaf edir, nailiyyətlərini gündən-günə artırır.

Fəxrlə deyə bilərik ki, bu gün Naxçıvan şəhərindən muxtar respublikanın ən ucqar kəndlərinə qədər inkişafın ən gözəl nümunələrini görmək mümkündür. Yeni yolların çəkilməsi, yeni inzibati binaların inşası, yüzlərlə yeni istehsal müəssisəsinin, on minlərlə yeni iş yerinin yaradılması müasir Naxçıvanın inkişafının əsas xarakterik göstəriciləridir. Bütün bunlar muxtar respublikanın simasını tamamilə dəyişib, onu nəinki ölkəmizin, bütün regionun ən gözəl ünvanlarından birinə çevirib.

Hazırda Naxçıvanda qazlaşdırma və elektriklə təminat 100 faizlik göstəriciyə bərabərdir. 2004-2020-ci illərdə muxtar respublika iqtisadiyyatı **12,5** dəfə artıb. Naxçıvanda inkişaf mərkəz və regionlar üzrə tarazlı xarakter daşıyır ki, bu da rentabelli istehsal sahələrinin bütün bölgələri əhatə etməsi, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, infrastrukturun yeniləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Budur inkişafın qürurdoğuran Naxçıvan nümunəsi...

Muxtar respublikada 2021-ci ildə də iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilib, yüksək nəticələr qazanılıb, dövlət proqramlarının və iqtisadi layihələrin icrası uğurla davam etdirilib. Ona görə 2021-ci ilin də inkişaf göstəriciləri uğurludur. Belə ki, Naxçıvanda iqtisadiyyatın əsas inkişaf göstəricisi sayılan ümumi daxili məhsul istehsalı 2020-ci illə müqayisədə 2021-ci ildə 2,4 faiz artaraq 3 milyard manatdan çox olub. Onun hər bir nəfərə düşən həcmi 6525 manat təşkil edib ki, bu da 2020-ci ildəki göstəricidən 3,4 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu istehsalın payına düşüb. Təkcə 2021-ci ildə Naxçıvanda **120** yeni sənaye müəssisəsi açılıb, mövcud sənaye müəssisələrinin istehsal gücləri genişləndirilib. Həyata keçirilən iqtisadi tədbirlərin nəticəsidir ki, muxtar respublikada **384** növdə məhsul istehsal edilir. **350** növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir ki, bu da yerli istehsalın xüsusi çəkisinin artması hesabına olub.

Naxçıvanın yüksəlişi istiqamətində görülən işlər, hər il müsbət makroiqtisadi nəticələrin əldə olunması, istehsal müəssisələrinin çoxalması, iş adamları üçün geniş sərmayə imkanlarının yaradılması inkişaf tempinin davamlı xarakter almasına və nəticə etibarilə vətəndaşların maddi rifahının yaxşılaşmasına, sosial sahədə mühüm uğurların qazanılmasına səbəb olub. Bir məsələni də xüsusi qeyd edək ki, Naxçıvanda torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə şəhid olmuş vətən övladlarının ailələrinə, müharibə əlillərinə davamlı maddi və mənəvi qayğı göstərilir. Bu kateqoriyadan olan şəxslərin sosial məsələləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun xüsusi nəzarətindədir və mütəmadi olaraq tədbirlər həyata keçirilməkdədir.

Bütün bunlar Naxçıvan Muxtar Respublikasının ölkəmizin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu təsdiq edir. Bu inkişaf Naxçıvanın uğuru olmaqla yanaşı, respublikamızdan kənarda Azərbaycanın gözəl tanıtımıdır. Blokadanın, həmçinin dünyada tüğyan edən pandemiyanın yaratdığı müəyyən çətinliklərə baxmayaraq, Naxçıvan inkişaf edir, yüksəlir, nailiyyətlərini ildən-ilə sürətlə artırır.

Prezident İlham Əliyevin inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri Vasif Talıbovun rəhbərliyi ilə uğurla reallaşması qarşıdakı dövrdə də respublikamızın bu bölgəsində yeni uğurlarla əlamətdar olacaq. Bu mənada əminliklə deyə bilərik ki, Naxçıvan Muxtar Respublikası bundan sonra Azərbaycanın inkişafının ən gözəl nümunələrini yaradan bölgələrdən biri kimi fərqlənəcək.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***



## Ölkəmiz ekoqida ixracatçısına çevrilə bilər




*Yer üzünün hər tərəfində təbiətdəki bütün canlılar bir-biri ilə sıx şəkildə həyat sürür. Bu üzdən canlı aləmdə baş verən bütün proseslər əlaqəli surətdə gedir. Dünya yaranandan bəri bu harmoniya beləcə davam edir.*

Məlumdur ki, dünyadakı iqlim dəyişiklikləri və qlobal çirklənmə insanlara, heyvan və bitki aləminə mənfi təsir göstərir, müxtəlif xəstəliklər törədir. Heyvanlardan insanlara müxtəlif xəstəliklərin keçdiyi də məlumdur. Bu xəstəliklərdən biri - “qara yara”nın insan həyatı üçün nə qədər təhlükəli olduğu tibb tərəfindən çoxdan aşkarlanıb. Elə götürək son dövrdə dünyada 3 milyondan çox insanın həyatına son qoyan koronavirus pandemiyasını. Bu xəstəliyin Çində yarasalardan insana keçdiyi bildirilir.

İnsanları müxtəlif yoluxucu xəstəliklərdən qorumaq üçün səhiyyə ilə yanaşı, baytarlığın da inkişafı eyni dərəcədə əhəmiyyətlidir. Heyvanlar arasında yayılan bəzi yoluxucu xəstəliklər insanlara təsir göstərməsə də, təsərrüfatlara ciddi ziyan vurur. Bu da əhalinin ərzaq təminatında problemlər yarada bilər. Məsələn, bir neçə il əvvəl Avropada inəklərdə müşahidə edilən xəstəlik üzündən heyvanları kütləvi şəkildə məhv etmək məcburiyyətində qaldılar.

Aqrar sektorda müxtəlif xəstəliklərdən mal-qaranın və ev quşlarının kütləvi qırılmasının qarşısını almaq üçün baytarlıq xidmətinin səviyyəsini artırmaq zəruridir. Hazırda ölkəmizdə baytarlıq xidməti bütün regionları əhatə edir, lakin onun daha da təkmilləşdirilməsinə ehtiyac vardı. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən 2020-ci il aprelin 22-də “Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” fərman imzalandı. Hazırda fərmanın icrası ilə əlaqədar baytarlıq sahəsində bir sıra institusional dəyişikliklər həyata keçirilir. Belə ki, dövlət sifarişi əsasında baytarlıq xidməti göstərən sahə baytarlıq məntəqələri mütəxəssislərinin gələcək fəaliyyətləri müqavilə əsasında özəl baytarlıq xidmətinə keçidlə əvəzlənəcək.

Ötən ilin sonunda Bakıda Cənubi Qafqazın ən böyük müasir Baytarlıq Klinikasının açılışı da ölkəmizdə baytarlıq xidmətinin yüksəlməsinə öz töhfəsini verəcək. Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq Elmi-Tədqiqat İnstitutunun nəzdindəki yeni Baytarlıq Klinikası müasir standartlara uyğun inşa edilib və müasir avadanlıqlarla təchiz edilib. Burada ev heyvanları ilə yanaşı, kənd təsərrüfatı heyvanlarının da müayinə-müalicəsi aparılacaq.

Baytarlıq Klinikasının maddi-texniki bazasının zəngin olması burada kadrların hazırlanmasına və təkmilləşdirilməsinə də imkan yaradır. Klinikada özəl xidmətə keçən baytarlıq mütəxəssisləri öz bilik və bacarıqlarını artıra, həmçinin müalicə-profilaktika sahəsində müasir biliklərə yiyələnə bilərlər. Bununla yanaşı, Azərbaycan Dövlət Aqrar Universitetinin Baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin gənc kadrlardan ibarət məzunlarının da klinikada bilik və bacarıqlarının təkmilləşdirilməsinə imkan yaradılacaq.

Heyvan xəstəlikləri kimi, bitki xəstəlikləri də kənd təsərrüfatına böyük ziyan vurmaqla məhsuldarlığı azalda bilir. Buna görə də bitki xəstəliyi və zərərvericilərə qarşı mübarizə aparmaq vacibdir. Bununla əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən “Rəqəmsal Kənd Təsərrüfatı” layihəsinin icrasına başlanılıb. Məqsəd bitki xəstəliyi və zərərvericilərinə qarşı mübarizənin effektivliyini artıraraq yüksək məhsuldarlığa nail olmaq və fermerlərin xərclərini azaldaraq yüksək gəlir əldə edilməsinə imkan yaratmaqdır.

Bu layihə ilkin olaraq Quba və Qusar rayonlarında fəaliyyət göstərən 4 iqlim stansiyasının alma, gilas, şaftalı və nektarin təsərrüfatları ilə məşğul olan 5800-dən artıq fermeri əhatə edəcək. Ötən il bu ərazidə çalışan fermerlərə dəmgil, boz çürümə, deşikli ləkəlilik, yarpaq qırılması və s. xəstəliklər, həmçinin alma meyvəyeyəni zərərvericisi barəsində vaxtında SMS bildirişləri göndərilmişdir.

Hər iki rayonda quraşdırılmış sensorlar havanın temperaturu, rütubət səviyyəsi, yağış miqdarı, yarpaqların nəmqalma müddəti, yağıntıların düşmə vaxtı və küləyin sürəti barədə məlumatları toplayır. Həmin məlumatlar süni intellekt vasitəsilə emal edildikdən sonra yekun nəticələr nazirliyin əməkdaşları tərəfindən analiz olunur. Xəstəlik və zərərvericilərin yayılması üçün uyğun şərait qeydə alındıqda bu barədə mövcud risklə bağlı fermerlərə SMS-lə xəbərdarlıq edilir.

Cari ildən bu layihənin əhatə dairəsi daha da genişləndiriləcək. Belə ki, bu il də fermerlər Cəlilabad ərazisində kartofda fitoftora, alternarioz, qaraayaq və kolorado kartof böcəyi, Zaqatalada isə fındıq təsərrüfatlarında unlu şeh və antraknoz xəstəlikləri barədə məlumatlandırılacaq.

Dünya təcrübəsi göstərir ki, heyvan və bitkilərin müxtəlif xəstəliklərdən səmərəli şəkildə qorunması məhsuldarlığın artmasında vacib amillərdən biridir. Sağlam heyvan və bitki məhsullarının istehsalı həm də insanların sağlamlığının qorunması deməkdir. Odur ki, bu məsələlərə xüsusi diqqət yetirilməlidir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Azərbaycan istənilən təhdidi dərhal məhv edəcək

*İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir, iqtisadi müstəqillik əlbəttə ki, siyasi müstəqilliyin təminatçısıdır.*

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə tələbatını idxal hesabına ödəyən Azərbaycanın cəmi 30 il müddətində iqtisadiyyatına 300 milyard dollar investisiya qoyulması, xarici ölkələrə yatırımlar etməsi, valyuta ehtiyatlarını 63 milyard dollara yüksəltməsi hər ölkəyə nəsib olmayan tarixi zəfərdir. Dünya artıq müstəqil Azərbaycanı qlobal layihələr həyata keçirən, islahatlar aparan, regional əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən, eyni zamanda güclü orduya sahib qüdrətli ölkə olaraq qəbul edir. İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra regionda yaranan yeni reallıqlar və bölgədə diktənin Azərbaycana məxsus olması bir daha təsdiq edir ki, ölkəmiz Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktorudur.

Bu gün isə qalib Azərbaycan iqtisadi qüdrəti hesabına bütün bölgələr, kimi, işğaldan azad etdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da misli görünməmiş quruculuq işlərinə başlayıb. Bununla da bütün dünyaya mesaj verir ki, savaş deyil, sülh tərəfdarıdır və atılan bütün addımlar bölgədə sabitliyin, təhlükəsizliyin təminatına hesablanıb.

### Ermənistan öhdəlikdən boyun qaçırır

Yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verən Prezident İlham Əliyev bu məsələlərə bir daha ayrı-ayrılıqda aydınlıq gətirib, ötən il qazanılan uğurlardan, görülən işlərdən və qarşıya qoyulan vəzifələrdən danışaraq postböhran dövründə reallaşdırılması nəzərdə tutulan müxtəlif istiqamətli layihələrdən, islahatlardan söz açıb. Prezident həmçinin müharibədən sonra Ermənistanın yerinə yetirmək istəmədiyi öhdəliklərdən danışaraq bir daha bu ölkəyə növbəti xəbərdarlığını ünvanlayıb.

İşğaldan azad edilən ərazilərimizdə görülən işlərdən danışan Prezident qeyd edib ki, müharibədən sonra 2021-ci ildə bu istiqamətdə çox böyük proqram icra edilməyə başlanıb. Müharibədən çıxmış bir ölkə üçün bu, ən genişmiqyaslı proqramdır. Bu proqramı fərqləndirən odur ki, heç kimin yardımı olmadan Azərbaycanın öz gücü hesabına həyata keçirilir. İlkin olaraq Qarabağda və Şərqi Zəngəzurda minalardan təmizlənərək elektrik təsərrüfatı yaradılıb, yollar çəkilib. Təkcə Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı və Ermənistanla həmsərhəd olan bölgələrdə 700 kilometrə yaxın yol çəkilib, 7 yarımstansiya inşa edilib. Artıq Bərdə-Ağdam dəmir yolunun və Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin bir parçası olan dəmir yolunun inşasına başlanıb. Göygöldən Kəlbəcərə uzunluğu 11 kilometrdən çox olan tunel çəkilir.

Göründüyü kimi, Azərbaycan bölgədə təhlükəsizliyin təminatı üçün böyük layihələr reallaşdırır. Həm də 10 noyabr bəyanatının müddəalarında üzərinə düşən öhdəliklərin icrasını gerçəkləşdirir. Amma mənfur qonşumuz yenə də pis niyyətindən əl çəkmir, hətta bəzi hallarda mülki işçilərə belə güllə atmaqdan çəkinmir: “Bu da onu göstərir ki, Ermənistan əfsuslar olsun ki, İkinci Qarabağ müharibəsindən axıra qədər dərs almayıb”.

Deməli, müharibənin hərbi fazası başa çatsa da, informasiya fazası hələ də davam etməkdədir. Ermənistan sülh müqaviləsi imzalanmaqdan, sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı sazişdən və Zəngəzur dəhlizinin açılmasında üzərinə düşən öhdəliyin icrasından yayınmaq üçün guya vaxt qazanır. Amma onu da yaxşı bilir ki, İlham Əliyev bir neçə xəbərdarlıqdan sonra dediyini edir və sözünün arxasında durur. Ona görə də rəsmi İrəvan başa düşməlidir ki, bu yolun sonu yoxdur. Azərbaycan Prezidentinin də mesajı məhz bu istiqamətə yönəlmişdi.

İlham Əliyev eyni zamanda düşmənin son hərbi təxribatına da toxunub və qeyd edib ki, bu gün Ermənistanda həm iqtidarda, həm müxalifətdə, həm də cəmiyyətdə güclü revanşist əhvali-ruhiyyə var. Azərbaycanın hərbi qulluqçularına qarşı növbəti hərbi təxribat da bunun bir parçasıdır. Heç bir əsası olmayan təcavüz nəticəsində bu günlərdə Azərbaycanın hərbi qulluqçusu şəhid olub və bu, müharibədən sonra baş verən birinci hadisə deyil. Bu da onu göstərir ki, Azərbaycanın bundan əvvəlki cəza xarakterli bütün cavab tədbirləri Ermənistan üçün ibrət dərsi olmayıb. Ancaq hadisədən dərhal sonra Azərbaycan Silahlı Qüvvələri cinayətkarları cəzalandırmaq üçün qəti tədbirlər görüb və düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. Bu hadisədən bir qədər sonra erməni tərəfi təkidlə atəşin dayandırılmasını xahiş etməyə başlayıb. Nəticədə Azərbaycan yenə humanizm nümayiş etdirib. Bir sözlə, düşmən başa düşməlidir ki, Azərbaycan əsgərinin ölümü heç vaxt onlara bağışlanmayacaq: “Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal sadəcə məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir”.

Ermənistanın heç vaxt Azərbaycan qarşısında dayana bilməyəcəyini söyləyən dövlət başçısı vurğuladı ki, bizi dayandıran yeganə amil müharibə yox, sülh istəməyimizdir. Amma səbrimizlə də oynamasınlar.

### Azərbaycana qarşı ədalətsizlik

İlham Əliyev bəzi beynəlxalq təşkilatlarda Azərbaycan və Ermənstana münasibət, xüsusən də Avropa İttifaqı (Aİ) tərəfndən hər iki ölkəyə ayrılan maliyyə vəsatinin həcmində böyük ayrı-seçkiliyin olmasına da aydınlıq gətirib və bunu ədalətsizlik adlandırıb. Hətta bu məsələ barədə qurumun rəhbəri Şarl Mişelə həm Bakıda, həm Brüsseldə dediyini də xatırladıb.

Maraqlidir ki, Aİ daha çox dağıntılara məruz qalmış Azərbaycana 140 milyon, Ermənistana isə 2,6 milyard avro maliyyə paketi nəzərdə tutur. Bu, təbii ki, ədalətsizlikdir.

Artıq bu, Avropa məkanına yayılmış bir faktdır. Ona görə də Azərbaycan Prezidenti haqlı olaraq bunun izahatını istəyir. İlham Əliyev deyir ki, əgər bu ədalətsizlik həyatda öz əksini taparsa, Azərbaycan səssiz qalmayacaq. Nəinki səssiz qalmayacaq, bu, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə çox böyük mənfi təsir göstərəcək: “Çünki əhali və ərazi baxımından Azərbaycan Ermənistandan beş dəfə böyükdür. Ermənistanda bir dənə də bina dağılmayıb. Bizim Livan boyda ərazimiz tamamilə yerlə-yeksan edilib. Bizə cəmi 140 milyon, onlara 2,6 milyard? Hansı əsasla, əsas nədir?! Qoy izahat versinlər. Mən məsələni elə qoymuşam ki, Ermənistana hansı şərtlərlə və hansı məbləğdə vəsait veriləcəksə, eyni şərtlərlə eyni məbləğdə bizə də verilsin. O izahat ki, Azərbaycanın pulu çoxdur, Ermənistanın pulu azdır. Bu, nə dərəcədə ədalətlidir? Ola bilməz”.

Prezident dedi ki, son hadisələrdə yeganə narahatlıq və problem yarana biləcək məsələ bu məsələdir. Azərbaycanla Aİ arasında hər hansı başqa bir fikir ayrılığı yoxdur. “Şərq Tərəfdaşlığı”nın son Zirvə görüşü də bunu göstərdi.

Dövlət başçısının üç saata yaxın yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi qətiyyətli fikirlər bir daha onu deməyə əsas verir ki, artıq heç kim Azərbaycanla təhdid dili ilə danışa bilməz. Eyni zamanda Azərbaycan özünə qarşı istənilən ədalətsizliyə susqun qalmır və düzgünlük tələb edir. İlham Əliyevin cəsarətli fikirləri, sərt xəbərdarlıqları bir daha xalqda əminlik yaratdı ki, Azərbaycan bundan sonra də öz Xilaskar Liderinin rəhbərliyi ilə bütün sahələrdə qarşıya qoyulmuş vəzifələri uğurla həyata keçirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

Azərbaycan 2021-ci ili qlobal siyasi-diplomatik nailiyyətlərlə başa vurdu. Rəsmi Bakının bu istiqamətdəki uğurlarını xarakterizə edən əsas məsələlərdən biri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Qoşulmama Hərəkatına rəhbərliyi oldu. Məhz Prezident İlham Əliyevin siyasi müdrikliyi ilə 2021-ci ildə hər iki beynəlxalq təşkilatın səmərəli fəaliyyəti, xüsusən onların qlobal proseslərdə fəal iştirakı təmin edildi.

## Qlobal siyasi uğur

### İlham Əliyev 2021-ci ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının səmərəli fəaliyyətini təmin etdi

### Azərbaycanın rəhbərliyi dövründə Türk Şurasının sıraları genişləndi

Türk Şurasının VII Zirvə görüşündə quruma sədrlik Qırğızıstandan Azərbaycana keçmişdi. Həmin Zirvə görüşündə Prezident İlham Əliyev bəyan etmişdi ki, türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı respublikamızın xarici siyasətinin prioritet istiqamətlərindən biridir və sədrliyi qəbul edən Azərbaycan türkdilli dövlətlər arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcək: "Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul edən Azərbaycan bu müddət ərzində ölkələrimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcəkdir. Bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir".

Təşkilata sədrliyi dövründə Azərbaycan türk dövlətləri arasında əlaqələrin daha da genişlənməsi istiqamətində təşəbbüslərlə çıxış etdi. Azərbaycanın sədrliyinin dünyanı çənginə alan COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, ölkəmiz türkdilli dövlətlər arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, habelə Türk Şurasının dünyada nüfuzunun daha da artırılması istiqamətində səylər göstərdi.

2020-ci il aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə Zirvə görüşü keçirildi. Bu görüş dövlət və hökumət başçıları səviyyəsində pandemiyaya həsr olunmuş və videokonfrans vasitəsilə təşkil edilmiş ilk beynəlxalq tədbir oldu. Zirvə görüşünün nəticəsi olaraq üzv ölkələr arasında pandemiya və sonrakı dövr ərzində əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı prezidentlərin təlimatlarına uyğun olaraq, iqtisadiyyat, nəqliyyat, səhiyyə, energetika, gömrük və miqrasiya sahələrindən məsul nazirlərin görüşləri keçirilib, qarşıya qoyulan hədəflər müzakirə olunub. Təqdirəlayiq haldır ki, Azərbaycanın şuraya sədrliyi dövründə türk dövlətlərinin səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, prokurorluq, ədliyyə və humanitar sahələrdə nazirləri və qurum rəhbərləri səviyyəsində yeni əməkdaşlıq mexanizmləri qurulub.

Azərbaycanın quruma rəhbərliyi dövründə - 2021-ci il martın 31-də Türk Şurasının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Ötən il sentyabrın 27-də isə İstanbulda "Əfqanıstandakı vəziyyət və son inkişaflar işığında onun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlərinə təsiri" mövzusunda Türk Şurasının Xarici İşlər Nazirləri Şurasının fövqəladə iclası keçirilib.

Onu da qeyd edək ki, Azərbaycanın rəhbərliyi dövründə şuranın sıraları da genişlənib: Özbəkistan Respublikası Türk Şurasının tamhüquqlu üzvü olub. Türkmənistan isə müşahidəçi statusunu alıb.

### Türk dünyasına Zəfər bəxş edən lider

Türk Şurasının 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə görüşündə sədrlik Azərbaycandan Türkiyəyə keçdi. Həmin Zirvə görüşünün əsas hadisələrindən biri Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi oldu.

2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-da işğalçı Ermənistanın kapitulyasiya aktı imzalaması ilə başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi, eyni zamanda türk dünyasının birliyini və bərabərliyini genişləndirməsi baxımından müstəsna əhəmiyyətə malik oldu. İlham Əliyevin səyləri nəticəsində bu gün ən yüksək əməkdaşlıq zirvəsinə qalxan türk dövlətlərinin birliyinin vacibliyi və əhəmiyyəti Vətən müharibəsi dövründə bir daha özünü təsdiq etdi. Türk dünyasının birlik arzusunu siyasi qətiyyəti ilə gerçəkləşdirən Prezident İlham Əliyevin əzmi sayəsində qazanılan Zəfər türk dövlətləri arasında həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynadı. Bu parlaq Zəfər həm də tarixən var olan türk birliyinin etnosiyasi coğrafiyasını bərpa etdi. *"Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev. Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur".* - deyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim edərkən bildirdi.

Zirvə görüşündə Qazaxıstanın birinci Prezidenti - Elbası Nursultan Nazarbayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbə, son illərdə əldə etdiyi nailiyyətlər, həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına ikiillik uğurlu sədrliyi münasibətilə Prezident İlham Əliyevi təbrik etmişdilər.

Bu Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının Türk Dövlətləri Təşkilatına dəyişdirilməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu və digər məsələlərlə bağlı qərarlar qəbul olundu.

### Beynəlxalq nüfuzun təcəssümü

Qoşulmama Hərəkatı dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur. BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olması bu hərəkatın mötəbərliyindən xəbər verir.

Digər təşkilatlarla müqayisədə Azərbaycanın Qoşulmama Hərəkatındakı üzvlüyü nisbətən yenidir. Respublikamız bu təşkilata 2011-ci ildə tamhüquqlu üzv olmaq qərarını vermişdir. Ölkəmiz həmin il Bali adasında keçirilmiş XVI Nazirlər Konfransında hərəkata qoşulub və ilk gündən onun ruhuna və prinsiplərinə hörmətlə yanaşıb. Bu da ondan irəli gəlir ki, rəsmi Bakı bütün dövlətlərlə bərabər əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu həyata keçirir. Ona görə hərəkata üzv olduğu nisbətən qısa müddət ərzində Azərbaycan özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb.

Özündə 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün 2019-cu ildə Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğuru oldu. Bu Zirvə görüşünə evsahibliyi üçün Azərbaycanın paytaxtının seçilməsi Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsidir. Bu məqsədyönlü siyasət Azərbaycan xalqının milli mənafeləri, müxtəlif dinlər və mədəniyyətlər arasında dialoqun, dünyada sülh və sabitliyin bərqərar olunmasına töhfə verməklə dövlətlərarası qarşılıqlı hörmət və anlaşmanın, habelə əməkdaşlığın təşviq edilməsi üzərində qurulub.

Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin əsas prioriteti müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verməklə çoxtərəflilik dəyərlərini təşviq etməkdir. QH sədrliyi kimi bu mühüm və məsuliyyətli vəzifəni qəbul edərkən, Azərbaycan çoxtərəfliliyin və Bandunq prinsiplərinin təşviqinə dair qətiyyətli sadiqliyini bəyan edib. Respublikamız təsis prinsiplərinin ruhunu və onlara bağlılığın əhəmiyyətini təşviq etmək üçün səylərini sədrliyi dövründə əsirgəməyib.

2021-ci il ərzində Azərbaycan Qoşulmama Hərəkatında sədrliyini uğurla davam edərək üzv dövlətlərin potensialının hərəkatın qarşısında duran məqsədlərin reallaşdırılmasına yönəlməsində aktiv rol oynayıb. Beynəlxalq təşkilat və qurumlar çərçivəsində, xüsusilə BMT-nin 6 qərargahında (Nyu York, Cenevrə, Vyana, Nayrobi, Paris, Haaqa) hərəkatın fəaliyyətinin əlaqələndirilməsi həyata keçirilib, Hərəkat adından müvafiq bəyanatlar səsləndirilib və irəli sürülmüş qətnamələr qəbul olunub.

Koronavirus (COVID-19) pandemiyasının ilk günlərindən Azərbaycan dünya ölkələrini bu bəlaya qarşı həmrəy olmağa və qarşılıqlı şəkildə əməkdaşlıq etməyə çağıran təşəbbüslərlə çıxış edən ölkələrdən biri olub. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan 2020-ci ildə başlatdığı fəaliyyəti ötən il də uğurla davam etdirib. Bu xüsusda 23 mart 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib. Qətnaməyə ümumilikdə 137 dövlət həmmüəlliflik edib ki, bu da BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamələr üçün olduqca yüksək göstəricidir.

### Azərbaycana göstərilən böyük etimad

2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətlərinin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilib.

Bunlarla yanaşı, 2021-ci il oktyabrın 4-5-də Qoşulmama Hərəkatında Azərbaycan sədrliyinin təşəbbüsü əsasında hərəkatın üzv dövlətlərini təmsil edən 100-dən çox gəncin iştirakı ilə Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin virtual təsis iclası, 26 noyabr 2021-ci il tarixində isə hərəkatın Parlamentarilər Şəbəkəsinin təsis iclası keçirilib.

2021-ci il oktyabrın 11-12-də isə Belqradda Qoşulmama Hərəkatının təsis edilməsinin 60-cı ildönümü münasibətilə yüksəksəviyyəli yubiley tədbiri keçirilib. Prezident İlham Əliyevin açılış nitqində hərəkatın təsis edilməsindən bəri beynəlxalq münasibətlər sistemində oynadığı mühüm rolu vurğulanıb, QH-nin əsasını təşkil edən Bandunq prinsiplərinin əhəmiyyətinə diqqət çəkilib, xüsusilə suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, digər dövlətlərin daxili işlərinə qarışmamaq kimi prinsiplərin müasir beynəlxalq münasibətlər sistemində aktuallığı və əhəmiyyəti vurğulanıb.

Qoşulmama Hərəkatının prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədilə 26 noyabr 2021-ci il tarixində QH Azərbaycan sədrliyinin təşəbbüsü əsasında hərəkatın Parlamentarilər Şəbəkəsinin təsis iclası keçirilib. QH-nin Parlamentarilər Şəbəkəsinin təsis edilməsi QH-yə sədrliyimizin hərəkata tarixi töhfəsi olmaqla yanaşı, ölkəmizin digər dövlətlərlə parlamentlərarası əməkdaşlığının inkişafına töhfə verən təşəbbüs olması baxımından əhəmiyyətlidir.

Göründüyü kimi, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi olduqca səmərəli olmaqla, təşkilatın qlobal proseslərdə iştirakına böyük töhfələr verir. Respublikamızın hərəkata sədrliyinin bir il uzadılması da bundan irəli gəlir. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bununla bağlı deyilir: "Biz beynəlxalq arenada öz mövqelərimizi möhkəmləndirdik. Bizim beynəlxalq nüfuzumuz artdı, bir neçə beynəlxalq təşkilat çərçivəsində uğurla fəaliyyət aparmışıq. Bildiyiniz kimi, Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını müdafiə etmişik, beynəlxalq hüququn norma və prinsiplərini müdafiə etmişik və təsadüfi deyil ki, Qoşulmama Hərəkatına üzv ölkələrin hamısı yekdilliklə Azərbaycanın sədrliyini daha bir il uzadaraq bizə böyük etimad göstərdi. BMT-dən sonra ikinci ən böyük təsisat, 120 üzvü olan təsisat Azərbaycana yekdilliklə bir daha öz dəstəyini ifadə etmişdir".

Yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan beynəlxalq aləmin məsuliyyətli üzvü kimi və Qoşulmama Hərəkatının sədri kimi, əlbəttə, bundan sonra da beynəlxalq hüququn aliliyini müdafiə edəcək. Beləliklə, 2021-ci ilin Azərbaycan üçün daha bir uğuru Türk Şurasına və Qoşulmama Hərəkatına edilən sədrlikdir. Bütün bunlar Prezident İlham Əliyevin yüksək siyasi nüfuzunun və respublikamızın beynəlxalq miqyasda güclü mövqelərə malik olmasının təsdiqidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksəksəviyyəli əməkdaşlıq... Bütün bunların əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri gündən-günə möhkəmlənir. Xalqlarımızın, ölkələrimizin sıx bağlılığı iki dövlətin başçılarının çıxışlarında da öz əksini tapır.

## Dostluğun və qardaşlığın təcəssümü

### Qarabağın işğaldan azad edilmiş ərazilərində quruculuq, bərpa və yenidənqurma işlərində də bunu görmək olur

Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu dövrdən başlayan qardaşlıq münasibəti bu gün yüksələn xətlə inkişaf edir. Çünki bu təməl Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verən Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub: Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının əbədi və daimi olduğunu təcəssüm etdirən "Biz bir millət, iki dövlətik" müdrik kəlamı bu gün də hər iki dövlətin vətəndaşları üçün örnəkdir.

Prezident İlham Əliyev də siyasi xəttində qardaş Türkiyə ilə münasibətlərə xüsusi önəm verib, bunu sözləri və əməlləri ilə təsdiq edib: "Bizim Türkiyə ilə qardaşlıq əlaqələrimiz dayanıqlıdır və reallaşdırılan layihələr bunu təsdiqləyir: aramızdakı qardaşlıq, dostluq əbədi olacaq, XXI əsr türk dünyası əsri olacaq..."

Türkiyə Cümhuriyyəti birmənalı şəkildə dost, qardaş Azərbaycanın yanında olduğunu hər zaman təsdiqləməkdədir. Yaxın tarixə nəzər salsaq bunun bir daha şahidi olarıq. Hələ 2016-cı ilin oktyabrında Türkiyənin Azərbaycandakı ozamankı səfiri Erkan Özoral deyirdi ki, burada fəaliyyət göstərən 2665 türk şirkəti 25 mindən çox insana iş imkanı yaradıb: "...Podratçı firmalarımız Azərbaycanda 2003-cü ildən indiyədək 11 milyard dollar dəyərində 347 layihə həyata keçirib. Qarşıya 2020-ci ilədək 15 milyard dollarlıq ticarət dövriyyəsi səviyyəsinə çatmaq hədəfi qoyulub. Türk şirkətlərinin Azərbaycandakı sərmayələrinin məbləği 9 milyard dollara çatıb. 2665 şirkətimiz 25 mindən çox insana iş imkanı təqdim edir. Podratçı firmalarımız Azərbaycanda 2003-cü ildən indiyədək 11 milyard dollar dəyərində 347 layihə həyata keçirib..."

Bunlar, əlbəttə, 4-5 il bundan əvvələ aid rəqəmlərdir. Qarabağın işğaldan azad edilmiş ərazilərində Türkiyə şirkətlərinin bərpa və yenidənqurma işlərindəki fəallıqları isə daha yüksək rəqəmlərdə özünün təsdiqini tapır.

Türkiyə şirkətləri Azərbaycanda 15,4 milyard dollar həcmində podrat layihələri reallaşdırıblar. Bu barədə Türkiyənin ticarət naziri Mehmet Muş ötən il dekabrın 14-də Bakıda keçirilən Azərbaycan-Gürcüstan-Türkiyə biznes forumunda deyib. "Türkiyə şirkətləri Azərbaycanda 455 podrat layihəsi reallaşdırıblar. Üçüncü ölkələr vasitəsilə sərmayələr daxil olmaqla, Türkiyənin Azərbaycana investisiyalarının ümumi məbləği 12 milyard dollara çatır", - deyə nazir qeyd etmişdi.

İşğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq proseslərində Türkiyə, İtaliya, Çin, Böyük Britaniyadan olan şirkətlər iştirak edirlər. Artıq onların sırasına dünya miqyasında tanınan yeni şirkətlər və təşkilatlar, maliyyə qurumları da qatılmaq niyyətindədir. Onların arasında qardaş Türkiyə şirkətlərinin çoxluq təşkil etməsi, əlbəttə, təsadüfi deyil.

Azərbaycan-Türkiyə əməkdaşlığı dövlət başçılarının iradəsinə uyğun bu gün yeni inkişaf mərhələsinə qədəm qoyub. 44 günlük Vətən müharibəsində Türkiyənin göstərdiyi siyasi dəstək Azərbaycanın haqq işinin qazanılmasında böyük rol oynadı. İkinci Qarabağ müharibəsindəki tarixi Qələbə qardaş ölkələrin həm də iqtisadi əlaqələrinə və diplomatik gücünə, Azərbaycan-Türkiyə amilinin möhkəmlənməsinə töhfə verdi. Azərbaycan Prezidenti İlham Əliyev bu və digər amilləri nəzərə alaraq demişdir: "Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir".

Qarabağın və ona bitişik ərazilərimizin işğaldan azad edilməsindən sonra hər iki qardaş xalq və ölkənin bir-birinə dəstəyi bu dəfə quruculuq və yenidənqurma işlərində özünü göstərməkdədir. Qarşılıqlı əməkdaşlığın ən yüksək göstəricisinin nəticəsidir ki, 2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzaladılar. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafını təmin edəcək.

2021-ci il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində Cocuq Mərcanlıda fəaliyyət göstərəcək Suvenir İstehsalı Müəssisəsi barədə məlumat verilərkən bildirildi ki, "Cocuq Mərcanlının İnkişafı" Fondu, "TÜİB" və "TİKA"nın maliyyə dəstəyi ilə yaradılacaq müəssisədə Cocuq Mərcanlı kəndinin 25 sakini işlə təmin olunacaq. İstehsalın təşkili üçün Türkiyədən mütəxəssislər cəlb edilib. Bundan əlavə, "TİKA"nın dəstəyi ilə 15 istixana yaradılıb. Əsas məsələ Türkiyə şirkətlərinin Azərbaycanda fəaliyyət sahələrinin genişləndirilməsi, xüsusən də Qarabağın dirçəldilməsi layihələrində iştirakında daha yaxından iştirak etməkdir.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə bağlı məlumat verilərkən isə qeyd edildi ki, uzunluğu 81 kilometr olan yolun 50-ci kilometrdən 81-ci kilometrə qədər hissəsini Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətləri tikirlər. Türkiyə şirkətlərinin işlədiyi hissədə 6 kilometr uzunluqda tunel və 7 yol ötürücüsü tikiləcək. Tunellərin ümumi uzunluğu 6500 metrdir. Şuşa şəhərinin girişində olan 4-cü və 5-ci tunellər isə artıq tikilib ki, biri 431, digəri isə 530 metr uzunluğundadır.

Türkiyəyə məxsus şirkətlər tərəfindən Kəlbəcərin ərazisində də uzunluğu 12 kilometr olan tunellər inşa edilir. Bu, Azərbaycanda ən böyük tuneldir: 11 min 600 metrdir. Artıq o tunelin 350 metri qazılmışdır. Laçın-Kəlbəcər tuneli də tikilir. Azərbaycanın Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir. Hazırda Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Ümumilikdə Qarabağ zonasında işləyən şirkətlərdə 13 min 280 nəfər çalışır.

Zəngəzur dəhlizi yolunun Ağbəndə, Ermənistan sərhədinə qədər olan hissəsi 123,6 kilometrdir. Bu yolun üzərində də 3 tunel olacaq ki, üst-üstə 3610 metrdir. Bu hissədə bütün yolu "Kalyon" şirkəti tikir. Həmin yolun üzərində Zəngilan hava limanı da yerləşir. Hava limanına gedən yolun 20 kilometrlik hissəsini "Kalyon"la birlikdə Azərbaycan şirkəti tikir.

"Kalyon" şirkəti tərəfindən işin demək olar ki, 45 faizdən çoxu yerinə yetirilib. "Kolin İnşaat" isə Qarabağda 29,4 milyon dollarlıq avtomobil yolunun tikintisi tenderinin qalibi olub.

Zəngilanda "Dost Aqropark"ın açılışında qeyd edildi ki, türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə işləmək imkanı yaradılacaq.

Azərbaycan Prezidentinin fikrincə, regional və beynəlxalq miqyaslı layihələrdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib: "...Mən bu gün fürsətdən istifadə edərək Azərbaycanın azad edilmiş torpaqlarında fəaliyyət göstərən bir çox Türkiyə şirkətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onların yorulmaz səyləri nəticəsində bu gün bu bölgədə yollar salınır, dəmir yolları çəkilir, tunellər tikilir, infrastruktur layihələri gerçəkləşir. Bu, bir daha bizim birliyimizin, qardaşlığımızın təcəssümüdür. Tam əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq, dövlətlərimiz bundan sonra da uğurlu əməkdaşlıq edəcək. Beləliklə, Türkiyə ilə Azərbaycanın birgə gücü daha da təsirli olacaq..."

Türkiyə Prezidenti R.T.Ərdoğan isə Azərbaycanın bütün dünyaya örnək olacaq inkişaf modelini yüksək dəyərləndirdi: "...Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm. Podratçı firmaları təbrik edirəm. Bütün texnika parkları ilə podratçı firmaların ürəkdən çalışması ən yüksək təqdirəlayiqdir. Türkiyə olaraq, biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməkdə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik. Azərbaycan bölgənin əsl potensialının həyata keçirilməsinə mane olan işğalı şanlı Zəferi ilə sona çatdırdı, BMT Təhlükəsizlik Şurasının illərdir tətbiq olunmayan qətnamələrini özü həyata keçirdi".

Beləliklə, deyə bilərik ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi quruculuq-abadlıq işlərini həyata keçirən ölkəmiz üçün yeni imkanlar açır. Xalqımız qardaş və dost ölkələrlə birlikdə bu mühüm missiyanı uğurla başa çatdıracaq. Əlbəttə, burada qardaş Türkiyənin yaxından iştirakı isə mühüm önəm kəsb edir. Bu həm də Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının təcəssümüdür. Qarabağımızın işğaldan azad edilmiş ərazilərində dinc quruculuq, bərpa və yenidənqurma işlərində də bu qarşılıqlı səmimiyyət özünü göstərir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ağdam pambıqçıları 6295,84 ton məhsul toplayıblar



Ağdam rayonunda pambıq yığımı başa çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 2021-ci ildə Ağdam rayonunda 1086,9 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 540 hektarı "Azərpambıq" MMC, 610 hektarı "P-Agro" MMC ilə müqavilə əsasında olmaqla, 2236,9 hektar sahədə pambıq becərilib. Tarlalardan 6295,84 ton "ağ qızıl" toplanıb. Hər hektarın məhsuldarlığı 28,14 sentnerdir.

## Dövlət xətti ilə kirayə verilən mənzillərin sayı 1301 olub

İpoteka və Kredit Zəmanət Fondu dövlət xətti ilə zəmanət və subsidiyalar verilmiş kreditlərin məbləğini açıqlayıb.

AZƏRTAC fonda istinadla xəbər verir ki, zəmanət və subsidiyalar verilmiş kreditin məbləği 262 milyon 633 min manatdır. Kirayəçilərin istifadəsinə 1301 yaşayış sahəsi verilib.

## İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 36 min 817 ipoteka krediti verilib

İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.

İKZF-dən bildirilib ki, fondun xətti ilə indiyədək 36 min 817 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 2 milyard 168 milyon 99 min manatdır.

## Azərbaycan neftinin qiyməti ötən ilin rekordunu yeniləyib



Azərbaycan neftinin qiyməti bahalaşıb.

AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,57 dollar artaraq 88,45 dollar olub.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin ötən il ərzində maksimum qiyməti oktyabrın 25-də (88,19) qeydə alınmışdı.

## Maldarlıqda uğurlu nəticələr əldə olunub

Neftçalada kənd təsərrüfatının aparıcı sahələrindən olan maldarlıqda uğurlu nəticələr qazanılıb.

Rayon statistika idarəsindən AZƏRTAC-a verilən məlumata görə, ötən il ət istehsalı 12704,9 ton təşkil edib. Quş əti 8095,5 ton, süd istehsalı 31696,1 ton, yumurta istehsalı 19103 min ədəd, yun istehsalı 288 ton olub.

Yanvarın 1-dək iribuynuzlu mal-qaranın baş sayı 43440 başa çatıb ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 1,7 faiz çox deməkdir. O cümlədən inək və camışların baş sayı 22000 baş olmaqla, keçən ilin eyni dövrü ilə müqayisədə 3,4 faiz çox, qoyun və keçilərin baş sayı 148441 baş olmaqla, 7,3 faiz çox olub.



## Mavi yanacağımız bol, ixrac infrastrukturumuz müasirdir

Ötən ilin iyul ayında Avropa İttifaqının (Aİ) prezidenti Şarl Mişelin Azərbaycana gəlişi və Prezident İlham Əliyevin dekabr ayında Brüsselə səfəri ölkəmizin Avropa İttifaqı ilə əlaqələrində yeni səhifə açır. Dövlətimizin başçısı Avropa İttifaqı ilə bağlı gündəliyimizin geniş olduğunu, 9 ölkə ilə strateji tərəfdaşlıq etdiyimizi dəfələrlə vurğulamışdır. Azərbaycan Aİ ilə enerji təhlükəsizliyi sahəsində də fəal əməkdaşlıq edir.

Bu məsələ indiki şəraitdə xüsusi önəm daşıyır. Məlum olduğu kimi, hazırda Avropada qaz böhranı yaşanır. Belə olan halda Azərbaycan qazına böyük ehtiyac duyulduğu da aydındır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində də bu məsələ öz əksini tapıb. Qeyd edilib ki, Azərbaycan etibarlı təchizatçıdır. Uzun illər ərzində neft təchizatçısı olaraq sınanmış tərəfdaş kimi şöhrət tapan ölkəmiz indi artıq həm də qaz ixracatçısı kimi tanınır. Belə ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır və onun bu statusu 2020-ci ilin son günündə "Cənub qaz qəhlizi"nin tam istifadəyə verilməsi ilə daha da möhkəmlənib.

Prezidentimiz bu barədə demişdir: "Cənub qaz dəhlizi"nin reallaşması birmənalı şəkildə tarixi hadisədir və bu nəhəng enerji layihəsini bu dərəcədə, yəni keyfiyyətlə və çətin geosiyasi vəziyyətdə həyata keçirmək doğrudan da böyük səylər tələb edirdi. Burada Azərbaycan bir neçə ölkəni bir komanda şəklində, necə deyərlər, səfərbər edib. Bu işə biz birlikdə nail olmuşuq və gələn ay Bakıda növbəti dəfə "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurası keçiriləcək, ənənəvi olaraq bizim təşəbbüsümüzlə Bakıda keçirilir. Hər dəfə bu görüşlərdə mən özüm şəxsən iştirak edirəm və görüləcək işlərlə bağlı geniş fikir mübadiləsi aparılır, artıq orada iştirak edən ölkələrin sayı genişlənir. Üstəgəl, orada bütün aparıcı banklar iştirak edir - Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur Bankı - yəni bütün aparıcı maliyyə qurumları, həmçinin şirkətlər iştirak edir. Ona görə "Cənub qaz dəhlizi"nin əhəmiyyətini bəlkə də indi Avropada daha çox görürlər. Çünki bu qaz böhranı bunları böyük dərəcədə sarsıtdı - həm qiymətlər, həm qazın qıtlığı, həm qaz anbarlarının dolu olmaması".

Beləliklə, hazırda dünyada, ələlxüsus Avropada qaz böhranın yaşandığını və "Cənub qaz dəhlizi"nin ixracat imkanlarının daha geniş olduğunu qarşılıqlı, müqayisəli təhlil etdikdə hansı reallıqlar üzə çıxır və hansı perspektivlər görünür?

Prezident İlham Əliyev bu barədə belə demişdir: "Qış təzə başlayır və gözlənilir ki, qış çox sərt olacaq. Ona görə qazın çatışmazlığı böyük fəsadlara gətirib çıxaracaq. Azərbaycan qazının həcmi o qədər də böyük deyil, amma bir neçə ölkə üçün bu, həlledici ola bilər və əlbəttə ki, ilk növbədə, burada bizim maraqlarımız təmin olunur. Çünki əgər bu kəmər çəkilməsəydi, biz zəngin qaz ehtiyatlarının üstündə, necə deyərlər, oturacaqdıq, nəyi isə gözləyəcəkdik. Əgər bu perspektiv olmasaydı, heç bir şirkət milyardlarla, on milyardlarla dollar vəsaiti bu yataqların işlənməsinə qoymazdı. Hazırda ixrac artır, yeni rəqəmlər mənə təqdim edildi. Bu il təxminən 19 milyard kubmetr qaz ixrac ediləcəkdir. Ondan 8 milyarddan çoxu Türkiyə, 7 milyarddan çoxu İtaliyaya ixrac ediləcək. Qalan qaz Gürcüstan, Bolqarıstan, Yunanıstan arasında bölünəcək".

Əlbəttə, bu, böyük həcmdir, üstəgəl, daxili tələbat da artır və həmin tələbat ödənilir. Cari ildə Azərbaycanda bütövlükdə 45 milyard kubmetr qazın hasil olunacağı gözlənilir. Qeyd edildiyi kimi, bunun 19 milyard kubmetri ixraca gedəcək, qalan hissəsi isə daxili tələbata yönəldiləcək və yataqlarda təzyiqi saxlamaq üçün yenidən laylarına vurulacaq.

Mavi yanacağı ixrac edən "Cənub qaz dəhlizi"nin perspektivləri böyükdür. Məhz bu layihə eyni zamanda Avropa ölkələri arasındakı interkonnektorların, bağlantıların tikintisinə də rəvac verib və indi bu sahədə də işlər görülür.

Beləliklə, Azərbaycanın həm bol mavi yanacağı, həm də onu nəql eməyə müasir ixrac infrastrukturu var.

Xatırladaq ki, "Cənub qaz dəhlizi" ilə "Şahdəniz" yatağından çıxarılan qaz nəql olunur. Bu, son onilliklər ərzində dünyada kəşf olunmuş ən böyük və zəngin qaz-kondensat yataqlarındandır. Yatağın təsdiq edilmiş qaz ehtiyatlarının həcminin 1 trilyon kubmetrdən artıq olduğu deyilsə də, onların daha çox olduğu güman edilir.

Bundan əlavə, gələcəkdə Xəzərin Azərbaycan sektorunda "Abşeron" qaz yatağı istismara veriləcək. "Ümid", "Babək", "Şəfəq-Asiman" və perspektivlər vəd edən digər yataqlarımız da var. Dünyada mavi yanacağa tələbatın artdığı və yeni yataqların heç də tez-tez kəşf olunmadığı indiki dövrdə bunun əhəmiyyətini şərh etməyə ehtiyac qalmır. Təbii ki, bu amil Avropa İttifaqı-Azərbaycan əlaqələrində bundan sonra da mühüm rol oynayacaq. Ölkəmizin həm gəlirləri artacaq, həm dünyadakı nüfuzu daha da möhkəmlənəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycana yatırılan sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir

"Odlar yurdu Azərbaycan birmənalı şəkildə müasir karbohidrogen sənayesinin beşiyi olduğunu iddia edə bilər, çünki hələ XIX əsrdə burada quyulardan neft hasil edilirdi. Hazırda biz bu gün bütün dünya ilə birgə iqlim dəyişikliyinə qarşı mübarizənin aparılmasında və qlobal istiləşmənin fəsadlarının qarşısının alınmasında bir araya gələrək ortaq və mühüm marağa sahibik".

Bu fikirləri Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səud "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində söyləyib.

Nazir deyib ki, Azərbaycana yatırılan 300 milyon dollara yaxın sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. "Bildiyiniz kimi, bu enerji stansiyasının gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Eyni zamanda 220 milyon kubmetr qaza qənaət olunacaq və biz il ərzində 400 min ton karbon qazının atmosferə atılmasını azaldacağıq. Bununla biz Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə vermiş olacağıq".

"ACWA Power" şirkətinin Azərbaycanda dənizdə külək enerjisi stansiyasının tikilməsi layihəsi ilə əlaqədar anlaşma memorandumu imzalayacağını bildirən Əbdül Əziz bin Salman Əl-Səud qeyd edib ki, onun ümumi gücü təxminən 500 meqavat olacaq.

## Ötən il özəlləşdirmədən dövlət büdcəsinə 112,7 milyon manat vəsait daxil olub

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən dövlət əmlakının özəlləşdirilməsində iştirak üçün yaradılan geniş imkanlar prosesin sürətlənməsinə və investisiyaların cəlb olunmasına istiqamətlənib.




2021-ci ildə 59 hərrac keçirilib. Hərraclarda 16 səhmdar cəmiyyətinin səhm paketi, 35 kiçik dövlət müəssisəsi, 4 yarımçıq tikili və 249 nəqliyyat vasitəsi özəlləşdirilib.

İnnovasiyaların və elektron üsulların tətbiqi, prosedurların daha da sadələşdirilməsi özəlləşdirmə prosesində səmərəliliyin və vətəndaş məmnunluğunun yüksəlməsinə səbəb olub. Belə ki, ötən il hərraca çıxarılmış dövlət əmlakı üzrə 93 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 40 onlayn qoşulma reallaşıb.

Yerin təkinin daha səmərəli istifadəsi məqsədilə ilk dəfə olaraq 2021-ci ildən keçirilməyə başlayan hərraclar vasitəsilə ümumilikdə 29 faydalı qazıntı yatağı istismara verilib.

Dövlət əmlakının özəlləşdirilməsinin mütərəqqi üsullarından biri də investisiya müsabiqəsidir. Ötən il ərzində 4 müəssisənin dövlətə məxsus səhm və paylarının satışı üzrə investisiya müsabiqəsi keçirilib, dövlət büdcəsinə 10 milyon manatdan artıq məbləğdə vəsaitin köçürülməsi təmin edilib. İnvestorlar 18 milyon manata yaxın məbləğdə investisiya proqramlarının icrasına, müəssisələrin dövlət büdcəsinə vergi və sosial ayırmalar üzrə borclarının ödənilməsinə dair öhdəliklər götürüb.

Qeyd edək ki, əvvəlki illərdə investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilmiş müəssisələr də daxil olmaqla, 2021-ci il ərzində müəssisələrə 21,3 milyon manata yaxın investisiya yatırılıb.

2021-ci ildə özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 112,7 milyon manat təşkil edib və illik proqnoz -101,6 faiz icra olunub. Bu, 2020-ci ilin göstəricisindən 51,2 milyon manat və ya 83,2 faiz çoxdur.

## Azərbaycan şokoladı İordaniyada tolerantlıq nümunəsi kimi

İordaniyanın "Əl Ənbat" qəzetində Marina Sudahın "Azərbaycan şokoladı bütün dünya üçün" başlıqlı yazısı dərc olunmuşdur. Əvvəlcə onu qeyd edək ki, Marina Sudahın atası xristian mənşəli ərəb, anası isə rusdur.

Maruan Sudahla dostluğumuzun az qala yarım əsrlik tarixi var. Elə qızının məqaləsini də bizə onun özü göndərib. Bu ailə Azərbaycan haqqında ərəb dünyasında illərdir ki, yazılar yazır, bizim haqq işimizi müdafiə edir. Sudahlar həmişə fəxarətlə azərbaycanlı olduqlarını deyir və erməni təbliğatına qarşı bacardıqları kimi mübarizə aparırlar.

Müəllif bu məqaləsində yazır ki, həm yeni il, həm də İsa Məsihin ad günü ərəfəsində onun diqqətini AZƏRTAC-ın bir xəbəri cəlb edir: "Azərbaycan Rusiyanın Ural bölgəsinə ən böyük şokolad ixracatçılarından biridir və 2021-ci il ərzində bura 170 ton şokolad ixrac etmişdir". Marina etiraf edir ki, Azərbaycan şirniləri şərq dünyasında ləziz tamı və bənzərsiz gözəlliyi ilə seçilir. Bakıda saysız-hesabsız beynəlxalq və yerli sərgilərin təşkil edilməsi adi bir haldır: "Heydər Əliyev Mərkəzi və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yarmarkalar keçirilir və burada şokolad ustası Nikolay Popovun məhsulları nümayiş etdirilir. Sonuncu belə tədbirdə 700 kiloqram şokolad işlənmiş və Popovun 250-dən artıq şəkil və heykəlləri nümayiş etdirilmişdir. Bundan əlavə, səyyar sərgilərin keçirilməsi də Azərbaycanın şokolad brendini 40-dan çox ölkəyə təqdim etməyə imkan vermişdir. Bütün bunlar ölkəmizdə yeni məhsulların çeşidinin artmasını göstərməklə yanaşı, eksport imkanlarını da genişləndirir".

Biz məqalənin müəllifindən adi bir xəbərin onu niyə belə cəlb etdiyini soruşduq. Marina Sudah maraqlı sual üçün təşəkkür edib bildirdi: "Bilirsinizmi, bizim ailədə atam daim ölkəniz haqqında yazır, biz də ona qoşuluruq. O, erməni təbliğatının hansı gücə malik olduğunu və necə iftiralar yağdırdığını yaxşı bilir. Əslində şokolad sərgisinin timsalında mən Azərbaycan xalqının nə dərəcədə müdrik, aqil və tolerant olduğunu göstərməyə çalışmışam. Yəni adi bir sərginin timsalında Azərbaycan xalqı özünün mədəni, sivil, ərazisində yaşayan bütün xalqlara eyni gözlə baxan ölkə olduğunu sübut edir".

Marinanın atası Maruan izah edir ki, 44 günlük müharibədə məğlub edilən Ermənistan təbliğat müstəvisində yeni mövqelərə və üstünlüklərə nail olmağa çalışır: "Ola bilər ki, Bakıdan baxanda bu sezilməsin, amma biz uzaqdan müşahidə edəndə bu canlanmanı görürük. Ermənilərin əsas məqsədi Azərbaycanın tolerant imicinə ağır zərbə endirmək, onu xristian dəyərlərinə və dininə düşmən kəsilmiş ölkə kimi nümayiş etdirməkdir. Onlar 44 günlük müharibədə biabırçılıqla məğlub olsalar da, informasiya müharibəsində təşəbbüsü ələ keçirməyə çalışırlar. Sərgidə təqdim edilən eksponatlar isə Azərbaycanın ən incə məqamlarda belə nə dərəcədə başqa xalqların mədəniyyətinə və tarixinə hörmətlə yanaşdığını göstərir. Bu sərgidə ən maraqlısı təqdim edilən heykəllərin və rəsmlərin yüksək zövqlə hazırlanması ilə yanaşı, xristian dəyərlərinə qoyulan valehedici yanaşmadır. Sərgidə təqdim edilən eksponatların əhatə dairəsi genişdir. Eyfel qülləsi, Misir ehramları, musiqi alətləri, müxtəlif silahlar, Azərbaycanın dövlət bayrağı, Alov qüllələri və s. kimi nümunələri qeyd etmək mümkündür".

Lakin bu sərgidən ana xətt kimi keçən xristian mövzusu ermənilərin təbliğat maşınının həmlələlinə verilən ən tutarlı cavabdır. Və yazının İordaniya mətbuatında gündəmə gəlməsində də əsas məqsəd budur.

Marina erməni təbliğatının ağlasığmaz iftiralar yağdırmağa qadir olduğunu açıqladı: "70 kiloluq şokoladdan hazırlanan "Müqəddəs ananın qəsri" Bakı tolerantlığının rəmzlərindən biri kimi hamının diqqətini cəlb edir. Bu eksponat bir daha onu təsdiq edir ki, Azərbaycan xalqı tolerantlığın, qardaşlığın və dostluğun müqəddəs rəmzlərini özündə daşımaq və onları qorumaq gücünə qadir ölkədir. Azərbaycan bütün dinlərə, bütün millətlərə faşizm ideyaları ilə yoluxan Ermənistandan fərqli olaraq eyni gözlə baxa bilir, ərazisində yaşayan bütün xalqları öz övladı kimi bağrına basır. Bizim ölkəmizdə digər xalqlara qarşı heç vaxt Ermənistanda müşahidə olunan ekstremizm, digər milli azlıqlara dözümsüzlük nümayiş etdirilməyib".

Marina izah edir ki, yazını yazmaqda məqsədi o olmuşdur ki, Azərbaycan hətta adi bir şokolad sərgisi ilə bütün dinlərə, mədəniyyətlərə və xalqlara rəğbətlə yanaşdığını ortaya qoya bilir, tolerantlığın bənzərsiz nümunəsini bütün dünyaya nümayiş etdirir.

Məhz bu keyfiyyətlərinə görə Azərbaycan bu gün dünyanın ən sivil ölkələrindən sayılır, Ermənistan isə faşizmin caynaqlarında can verməkdən yorulmur. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasəti və güclü diplomatiyası sayəsində Bakı kontinental və beynəlxalq konfransların və görüşlərin keçirildiyi uğurlu platformaya çevrilmişdir. Məhz İlham Əliyevin müdrik rəhbərliyi sayəsində bu ölkə sürətlə irəli gedir, məğlub Ermənistan isə yenə də kirli siyasətə bulanaraq Azərbaycanı beynəlxalq aləmdə ləkələməyə çalışır. Bu baxımdan İordaniya vətəndaşı Marina Sudahın erməni hiylələrinə qarşı etiraz etməsi diqqətəlayiqdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Naxçıvan MR-də 550-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur



Ötən il muxtar respublikanın Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 7 milyon 744 min manat təşkil edib. Bu kreditlərdən 191 min 500 manatı sənaye sahələrinin yaradılmasına sərf olunub.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, maliyyələşdirilmiş layihələr hesabına 550-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkanlar yaradıb, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırıb. Həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlib.

## Ötən il laçınlı arıçılara 27,8 min manat subsidiya ödənilib

Laçın rayonundan olan məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Ağcabədi rayonunun Taxtakörpü ərazisində 167 təsərrüfatçı arıçılıqla məşğul olur.

Hazırda Taxtakörpü ərazisindəki arıçılıq təsərrüfatlarında 2780 arı ailəsi var. Dövlətin bu sahəyə göstərdiyi qayğı, eləcə də hər arı pətəyinə görə subsidiya ayrılması arıçılığa marağı artırıb.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Laçın Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib. Qurumdan bildirilib ki, Nazirlər Kabinetinin təsdiq etdiyi "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"na uyğun olaraq, ötən il Ağcabədi rayonunun Taxtakörpü ərazisindəki arıçılıqla məşğul olan təsərrüfatçılara dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 27 min 800 manat subsidiya ödənilib.

2021-ci ildə laçınlı arıçıların bir qismi arılarını 30 ilə yaxın həsrətində olduqları doğma yurdlarında bəsləmək imkanı qazanıblar. Ötən ilin yayında 531 arı ailəsi olmaqla, 15 arıçılıq təsərrüfatının işğaldan azad edilmiş Laçın rayonunun yaylaqlarına köçürülməsi təmin edilib. Həmin arı ailələrindən 8 tona yaxın bal götürülüb.

# Energetika Nazirliyi ilə “ACWA Power” şirkəti dənizdə külək enerjisi sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumu imzalayıb

240 meqavat gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti arasında dənizdə külək enerjisi sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumu imzalanıb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, energetika nazirinin müavini Elnur Soltanovun və “ACWA Power” şirkətinin investisiya üzrə baş direktoru Clive Turtonun imzaladığı memorandum dənizdə külək enerjisi sahəsində əməkdaşlığın əsas prinsiplərinin müəyyənləşdirilməsi, Azərbaycanda bərpaolunan enerji layihələrinə gəlirli investisiya qoyuluşu üçün potensialın qiymətləndirilməsi və şəraitin yaradılması üzrə əməkdaşlığı nəzərdə tutur.

Nazir müavini Elnur Soltanov bildirib ki, “ACWA Power” şirkəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dayanıqlı inkişaf və təmiz ətraf mühitə nail olmağa xidmət edən “yaşıl enerji” kursunun həyata keçirilməsində mühüm tərəfdaşımızdır. “Bu sənədin imzalanması “ACWA Power” şirkəti ilə bərpaolunan enerji sahəsində əməkdaşlığımızın genişləndirilməsinə və Azərbaycanın dənizdə külək enerjisi üzrə inkişaf hədəflərinə də töhfə verəcək”, - deyə nazir müavini qeyd edib.

“ACWA Power” şirkətinin sədri Mohammad Abunayyan memorandumun əhəmiyyətindən danışaraq deyib: “Anlaşma memorandumunun imzalanması Azərbaycanın Energetika Nazirliyi tərəfindən bizə etimadın nümayişidir və biz bu əhəmiyyətli nailiyyətlə strateji tərəfdaşlığımızı möhkəmləndirməkdən qürur duyuruq. Davamlı əməkdaşlığımız bizə bu gözəl ölkədə enerji keçidinə töhfə verməyə və Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş milli enerji kompleksində “yaşıl enerji”nin payının artırılması məqsədinə nail olmaqda fəal rol oynamağa imkan verəcək”.

Memorandum çərçivəsində həyata keçirilən fəaliyyətləri istiqamətləndirmək və onlara nəzarət etmək məqsədilə Rəhbər Komitə və İşçi Qrup yaradılacaq.

Xatırladaq ki, Azərbaycan hazırda “ACWA Power” şirkəti ilə investisiya dəyəri 300 milyon ABŞ dolları olan 240 meqavat gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyası layihəsi üzrə əməkdaşlıq edir.

Qeyd edək ki, “ACWA Power” şirkəti qlobal miqyasda bərpaolunan enerji sahəsində 14900 meqavat olmaqla elektrik enerjisi sahəsində ümumilikdə 42800 meqavat qoyuluş gücünə bərabər istehsal və 67,2 milyard ABŞ dolları məbləğində investisiya portfelinə malikdir.

# Qarabağ şəhidləri haqqında kitabın təqdimatı olub

Gəncə Uşaq Evində Əməkdar müəllim Səmayə Mirzəyevanın qələmə aldığı “Şəhidlikdən qələbəyə gedən yol” adlı kitabının təqdimatı keçirilmişdir.





Təqdimatda şəhər rəhbərliyi, Gəncə Uşaq Evinin kollektivi, şəhid ailələri, ictimaiyyət nümayəndələri və Uşaq Evinin kiçik sakinləri iştirak etmişlər.

Mərasimdə Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra Vətənimizin bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tədbir iştirakçılarını salamlayaraq diqqətə çatdırmışdır ki, 30 il işğal altında qalan torpaqlarımız cəmi 44 gün ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Ordumuzun gücü ilə azad edildi və qələbəmiz tarixə qızıl hərflərlə yazıldı. “Əlbəttə, istər Birinci Qarabağ savaşında, istərsə də Zəfərlə yekunlaşan Vətən müharibəsində bizim şəhidlərimiz və qazilərimizin rolu danılmazdır. Məhz onların şücaətləri nəticəsində bu gün öz əzəli torpaqlarımıza qovuşmuşuq. Səmayə xanımın qələmə aldığı “Şəhidlikdən qələbəyə gedən yol” adlı kitabda da şəhidlikləri ilə dastana çevrilən qəhrəmanlarımız haqqında da geniş bəhs olunub. Bunun üçün hörmətli yazıçıya təşəkkür edir və uğurlar arzulayıram. Sonda bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə cansağlığı diləyirəm”, - deyə Niyazi Bayramov çıxışını tamamlamışdır.

Səmayə Mirzəyeva çıxışında kitabının ərsəyə gəlməsi ilə əlaqədar tədbir iştirakçılarına geniş məlumat vermişdir. Hər iki müharibə zamanı şəhid olan igidlərimizin qəhrəmanlıqları barədə danışan müəllif kitabın işıq üzü görməsində ona kömək edəm hər kəsə minnətdarlığını bildirmişdir.

Təqdimat mərasimində Milli Qəhrəman, şəhid Polad Həşimovun ömür-gün yoldaşı Ofelya Salmanova ilə videoformat vasitəsilə əlaqə saxlanılmışdır. Ofelya xanım Polad Həşimovla bağlı xatirələrini bölüşmüş və kitabın müəllifinə təşəkkürünü bildirmişdir.

Sonda Gəncə Uşaq Evinin sakinləri tərəfindən şəhidlərə həsr olunmuş səhnəciklər nümayiş etdirilmiş və şeirlər səsləndirilmişdir.

Tədbir iştirakçılara adıçəkilən kitabın hədiyyə edilməsi ilə yekunlaşmışdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Müdafiə naziri Ali Hərbi Məktəbin şəxsi heyəti ilə görüşüb

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin məktəbin ərazisindəki abidəsi önünə gül dəstələri qoyulub, xatirəsi dərin ehtiramla yad edilib.

Sonra hərbi məktəbin klubunda zabit və kursantlar, həmçinin professor-müəllim heyəti ilə görüş keçirilib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.





Müdafiə naziri çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbənin tarixi əhəmiyyətini şəxsi heyətin diqqətinə çatdırıb. Müharibə zamanı qardaş Türkiyənin mənəvi və siyasi dəstəyinin vacib rol oynadığı xüsusi vurğulanıb.

Yeni tədris ilinin başlanması münasibətilə şəxsi heyəti təbrik edən nazir hərbi məktəbin yetirmələrinin Vətən müharibəsində qəhrəmanlıq və şücaətlərini yüksək qiymətləndirib. Müdafiə naziri Azərbaycan Ordusunda yeni texnologiyalardan istifadə olunmaqla aparılan kadr islahatlarının ordumuzun daha da güclənməsində mühüm rol oynadığını bildirib.

Ali Hərbi Məktəbdə hərbi mütəxəssislərin hazırlıq proqramının Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin hərbi məktəblərində tətbiq olunan proqramlara uyğunlaşdırılmasının Azərbaycan Ordusunda peşəkar zabit kadrlarının hazırlanması istiqamətində atılan mühüm addımlardan biri olduğu qeyd edilib.

Sonra general-polkovnik Zakir Həsənov kursantların qayğıları ilə maraqlanıb, onlara tədrisdə və gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonda müdafiə naziri hərbi təhsil sisteminin daha yüksək səviyyədə təşkili üçün müvafiq tapşırıqlar verib.

# Vətəndaşlara əlillik dərəcələrinin verilməsi prosedurunu saxtalaşdıran komissiya üzvlərinin qanunsuz əməlləri ifşa olunub

Ötən il ərzində müxtəlif tibb müəssisələrinin həkim məsləhət komissiyalarının üzvləri tərəfindən ayrı-ayrı şəxslərə müvafiq əlillik dərəcələrinin verilməsi məqsədilə təyin olunmuş diaqnozların saxtalaşdırılması faktları əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işlərinin ibtidai istintaqı yekunlaşdırılıb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin işlər üzrə aparılmış istintaqla İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin “Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi” Publik Hüquqi Şəxsin 15 saylı şəhər poliklinikasının həkim məsləhət komissiyasının üzvləri Mehparə Məmmədovanın və Könül Sultanovanın vəzifə səlahiyyətlərindən sui-istifadə edərək fəaliyyət göstərdikləri komissiyaya müraciət etmiş şəxslərə əlillik dərəcəsinin verilməsinə nail olmaq məqsədilə onların xəstəlikləri barədə məlumatları bilərəkdən ağırlaşdırıb təhrif edilmiş formada rəsmi elektron informasiya resursuna daxil etmələrinə, bununla da dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmalarına əsaslı şübhələr müəyyən olunub. Hər iki vəzifəli şəxs Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb ediliblər. Cinayət işləri aidiyyəti üzrə məhkəməyə göndərilib.

## “Azərenerji” ASC Kəlbəcər rayonunda “Tərtər-3” KSES-in yenidənqurma işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az**).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda, təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təklifini isə 09 mart 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına - Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Azərenerji” ASC Kəlbəcər rayonunda “Qaraarxac (Qaraxan)” KSES-in yenidənqurma işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az**).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda, təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təklifini isə 09 mart 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına - Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Elm xadimləri

# Torpaqların tədqiqi müqəddəs işdir

*Ulu Öndər Heydər Əliyev elm xadimləri haqqında fikir səsləndirərkən deyirdi: “Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə gətirə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur”.*

Bu mənada Azərbaycanın müasir elm tarixində özünəməxsus yeri olan, mənalı ömrünün 50 illini ekologiya, torpaqşünaslıq və digər əlaqədar elm sahələrinin aktual problemlərinin həllinə həsr etmiş akademik Qərib Məmmədov dəyərli ziyalı, yüksək yaradıcılıq imkanlarına, böyük tədqiqatçı potensialına və idarəçilik qabiliyyətinə sahib alim və elm təşkilatçısı kimi tanınmışdır. Onun müəllifi olduğu elmi əsərlərlə tanış olduqda akademikin yaradıcılığının dərinliyi, tədqiqat istiqamətlərinin çoxşaxəliliyi bir daha aydın olur. Qərib müəllim eyni zamanda yüksəkixtisaslı kadrların hazırlanmasında əvəzsiz xidmətləri olan pedaqoq, milli dövlətçiliyə sədaqəti ilə seçilən ictimai xadim kimi də çoxlarına örnək ola biləcək ziyalıdır.



Akademik Qərib Məmmədov 6 yanvar 1947-cı ildə Ermənistan SSR-in Amasiya rayonunun Yeniyol kəndində anadan olmuşdur. O, 1954-1962-ci illərdə Yeniyol kəndinin 8 illik və Amasya rayonu istehsalat təhsili verən 11 illik orta məktəblərində təhsil aldıqdan sonra 1966-cı ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Coğrafiya-biologiya fakültəsinə qəbul olunmuşdur. Qərib Məmmədov ali təhsil illərindən etibarən torpaqşünaslıq elminə böyük maraq göstərmiş, Tələbə Elmi Cəmiyyətinin üzvü olmuşdur. Elə bu maraq və çalışqanlığı sayəsində gənc Qərib Məmmədov 1970-ci ildə Pedaqoji İnstitutu fərqlənmə diplomu ilə bitirmişdir.

Qərib Məmmədov əmək fəaliyyətinə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Eroziya Bölməsində laborant kimi başlamışdır. O, 1972-ci ildən elmi fəaliyyətini Azərbaycan SSR Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda davam etdirmişdir. Növbəti il institutda əyani aspiranturaya qəbul olunan Qərib Məmmədov 1978-ci ildə “Mil düzünün qərb hissəsinin otlaq torpaqlarının aqroekoloji xarakteristikası və bonitirovkası” mövzusunda dissertasiya işini uğurla müdafiə edərək SSRİ AAK tərəfindən elmlər namizədi elmi dərəcəsini almışdır. Bu tədqiqat işi Mil düzünün otlaq torpaqlarının heyvandarlıqda səmərəli istifadəsinə xidmət etmiş, onun əsasında yem vahidi xəritəsi tərtib olunmuşdur. Təsadüfi deyildir ki, sözügedən elmi iş həmin dövrdə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən səmərəli təklif kimi qəbul edilmişdir.

Alim daha sonra tədqiqat sahələrini genişləndirərək təkcə torpaqşünaslığın deyil, ekoloji problemlərin də həlli üzrə fəaliyyət göstərmiş, bu istiqamətdə bir sıra qiymətli elmi əsərlər yazmışdır. İllərin gərgin zəhmətinin və elmi axtarışlarının nəticəsi kimi, Qərib Məmmədov 1991-ci ildə Dnepropetrovsk Dövlət Universitetində “Azərbaycanın kənd təsərrüfatı və meşə altında olan torpaqlarının ekoloji qiymətləndirilməsi” mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmiş, 1992-ci ildə ekologiya ixtisası üzrə biologiya elmləri doktoru alimlik dərəcəsini, daha sonra professor elmi adını almışdır. Adından da göründüyü kimi, tədqiqat işinin əsası Azərbaycanın kənd təsərrüfatı və meşə altında olan torpaqlarının ekologiyası məsələlərindən ibarət olmuşdur. Burada torpaqların ekologiyası ilə bağlı problemlər müəllif tərəfindən irəli sürülən ekoloji konsepsiya əsasında geniş təhlil olunmuş, onların həlli yolları müəyyən edilmişdir. Elmi tədqiqat fəaliyyətlərində və kadr hazırlığında əldə etdiyi mühüm nəticələrə görə Qərib Məmmədov 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Tanınmış alim ictimai-siyasi fəaliyyəti ilə də seçilmişdir. Qərib Məmmədov 1996-cı ildə birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş və millət vəkili kimi uğurlu fəaliyyəti akademiki respublikada ictimai xadim kimi tanıtmışdır. Milli Məclisin deputatı olarkən ona müraciət edən seçicilərə biganə yanaşmamış, onların qayğı və problemləri ilə yaxından maraqlanmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın qarşılaşdığı çətinliklər geodeziya və kartoqrafiya sahəsinə də mənfi təsir göstərmişdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə vüsət alan dövlət quruculuğu, respublikanın sürətli inkişafı, beynəlxalq və regional layihələrin həyata keçirilməsi geodeziya və kartoqrafiya fəaliyyətinin əhəmiyyətini bir daha göstərmiş və Qərib Məmmədovun rəhbərliyi ilə özünün inkişaf dövrünü yaşamağa başlamışdır. Bu illərdə ölkəmizin sərhədlərinin müəyyən edilməsində, Mili Orduda və digər güc strukturlarında, beynəlxalq statuslu hava limanlarımızda, dəniz limanında, su-elektrik stansiyalarımızda, neft və qaz kəmərlərinin tikintisində geodeziya və kartoqrafiya işlərinin milli kadrlarımızdan ibarət dövlət icra orqanı tərəfindən yerinə yetirilməsi olduqca vacib işlərdən birinə çevrilmişdir.

Elmi və idarəçilik potensialını bu sahələrdə uğurla nümayiş etdirən Qərib Məmmədov 1997-2001-ci illərdə Dövlət Torpaq Komitəsinin, 2001-2015-ci illərdə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri vəzifələrində çalışmış, 1997-2015-ci illərdə hökumət və respublika aqrar islahat komissiyalarının üzvü olmuşdur. Onun fəaliyyəti nəticəsində rəhbərlik etdiyi komitə Avropada Milli Xəritəçəkmə və Kadastr təşkilatlarının assosiasiyası olan “Eurogographics”ə üzv seçilmişdir. Təşkilat çərçivəsində akademik dəfələrlə Asiya və Sakit Okean üçün Geoməkan İnformasiyasının İdarəolunması üzrə BMT-nin Regional Komitəsinin İcraçı Şurasının üzvü kimi məsləhətləşmələrdə yaxından iştirak etmişdir.

Akademik Qərib Məmmədov fəaliyyət göstərdiyi illərdə respublikamızı beynəlxalq təşkilatlarda uğurla təmsil etmiş, Azərbaycanın haqlı səsini dünya ictimaiyyətinə çatdırmışdır. Belə tədbirlərdən biri 2013-cü ildə Birləşmiş Krallıqda keçirilmiş Kembric konfransı olmuşdur. Alim həmin konfransda Azərbaycanın əldə etdiyi uğurları, Ermənistanın hərbi təcavüzünü və bu təcavüzün nəticələrini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Qərib müəllimin elmi fəaliyyəti çoxistiqamətli olmaqla, əsasən Azərbaycanın torpaq ehtiyatları və onlardan səmərəli istifadə olunması, torpaq örtüyü strukturunun öyrənilməsi, deqradasiya olunmuş torpaqların qiymətləndirilməsinin aqroekoloji xüsusiyyətlərinin və bonitirovkasının öyrənilməsi məsələlərinin həllinə yönəlmişdir. O, ilk dəfə Azərbaycan torpaqlarının xəritələşdirilməsi, ekoloji qiymət xəritəsinin tətbiqi, torpağın maliyyə-iqtisadi qiymətləndirilməsinin elmi əsasları, torpaq münbitliyinin konseptual və riyazi modelləşdirilməsi, respublikanın ekoloji problemlərinin sistem halında öyrənilməsi konsepsiyasının işlənilməsi, Azərbaycanın torpaq kadastrının rayonlaşdırılması və monitorinqi, torpaq atlası, geodeziya, topoqrafiya, kartoqrafiya və s. kimi məsələlərin həlli üzrə tədqiqatlar aparmışdır.

Alim tərəfindən Azərbaycan torpaqlarının aqroekologiyası və bonitirovkası, ekoloji münbitlik modelləri, coğrafi yayılma qanunauyğunluqları öyrənilərək xəritələşdirilmiş, torpaq örtüyünün strukturu tədqiq edilmiş, landşaft komplekslərinin və torpaq kadastr rayonlarının ekoloji qiymətləndirilməsi, ekoloji monitorinqi aparılmışdır. Ekoloji qiymət xəritəsi, Azərbaycan, rus, ingilis dillərində torpaq və ekoloji atlaslar, Azərbaycanın ekoloji konsepsiyası hazırlanmışdır. İlk dəfə Qərib Məmmədovun rəhbərliyi və həmmüəllifliyi ilə 2018-ci ildə aerokosmik materiallar, relyef plastikası əsasında “Coğrafi informasiya sistemləri əsasında interaktiv elektron torpaq və torpaqların ekoloji qiymət xəritələrinin tərtibinə dair metodik göstəriş”, 2020-ci ildə 1:100 000 miqyasında interaktiv torpaq və ekoloji qiymət xəritələrinin tərtibinə dair metodik göstəriş, 2021-ci ildə “Məkan məlumatları təhlilinin mənimsənilməsi” adlı tədris vəsaiti, Azərbaycan Respublikasının yeni torpaq xəritəsi və torpaq atlası hazırlanmış, torpaq inzibatçılığı, torpaqların ekoetik problemləri və onların həlli yolları verilmiş, fond və şəxsi materiallara istinadən Azərbaycanın 1:100000 miqyasında GİS əsaslı torpaq xəritəsi tərtib edilmişdir.

Qərib Məmmədov 730-dan çox elmi əsərin, o cümlədən 30-dan çox metodik tövsiyə və kitabça, 36 müəlliflik şəhadətnaməsi və patent, 5 səmərələşdirici təklif, 34 dərslik və monoqrafiyanın müəllifidir. Akademik Qərib Məmmədovun ölkədə elmi kadrların hazırlanmasında xidmətləri böyükdür. Alimin elmi rəhbərliyi və məsləhətçiliyi ilə 58 fəlsəfə, 14 elmlər doktoru hazırlanmışdır. Hazırda onun rəhbərliyi altında “Aqroekologiya”, “Torpaqşünaslıq”, “Aqrokimya”, “Torpaq coğrafiyası”, “Ekologiya”, “Biologiya”, “Torpaq kadastrı”, “Coğrafiya” ixtisasları üzrə çoxsaylı fəlsəfə və elmlər doktorları elmi tədqiqat işləri aparırlar.

Alimin elmi fəaliyyəti və onun nəticələri təkcə ölkəmizdə deyil, xarici dövlətlərin elm və təhsil müəssisələrində də tanınır. Qərib Məmmədovun elmi məqalələri ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Niderland, Türkiyə, Bolqarıstan, Avstraliya, Çin, Cənubi Koreya, BƏƏ, Rusiya, Ukrayna, Moldova, Qazaxıstan, Özbəkistan və digər xarici ölkələrin geniş oxucu auditoriyasına malik Web of Science və Scopus bazasında indeksləşən jurnal və konfrans materiallarında çap edilmişdir. Hazırda dünyada elmmetrik göstəricilər arasında h-indeksi vacib amillərdən biridir. Akademik Qərib Məmmədovun h-indeksinin 14-ə bərabər olması və elmi əsərlərinə 1138 istinadın olması mühüm nailiyyətdir.

Akademikin “Azərbaycan Respublikasının dövlət torpaq kadastrı: hüquqi, elmi və praktiki məsələləri”, “Əsrimizin qlobal ekoloji problemləri”, “Heydər Əliyevin torpaq islahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır”. “Azərbaycanda aqrar islahatlar: tənəzzüldən ərzaq təhlükəsizliyinə doğru”, “Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları” kitabları dövrünün ən sanballı əsərlərindən hesab oluna bilər.

Qərib Məmmədovun apardığı tədqiqat işlərinin istiqamətlərində daim ekoloji problemlərin həllinə yönəldilmiş elmi əsərlər prioritet istiqamət təşkil edir. Akademikin müəllifi və həmmüəllifi olduğu bir çox kitablar (“Ekologiya, ətraf mühit və insan”, “Ekologiya və ətraf mühit”, “Ekologiya və ətraf mühitin mühafizəsi”, “Azərbaycan meşələri”, “Meşə ekologiyası”, ikicildlik “Azərbaycanın ekoturizm potensialı”) respublikamızın ekoloji problemlərinin həllinə qiymətli töhfələrdir. Göstərilən nəşrlərdə ölkəmizin təbiəti, milli parklar, qoruq və yasaqlıqları, ümumən ekologiyası haqqında ətraflı məlumat verilməklə yanaşı, ətraf mühitin və insanın qarşılıqlı təsirinin izahı da geniş tədqiq edilmişdir.

Akademik Qərib Məmmədovun respublikamızda müvafiq sahələrdə təhsilin inkişafında da böyük xidmətləri vardır. Belə ki, alim özünün şəxsi təşəbbüsü və bilavasitə dəstəyi ilə 2004-cü ildən Bakı Dövlət Universitetinin Biologiya fakültəsində, 2011-ci ildən isə Ekologiya və torpaqşünaslıq fakültəsində fəaliyyət göstərən Torpaqşünaslıq kafedrasının müdiri olmuş, pedaqoji fəaliyyəti dövründə tədris ədəbiyyatlarının hazırlanmasında yaxından iştirak etmişdir. “Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları”, “Torpağın eroziyası və mühafizəsi”, iki hissədən ibarət “Aqroekologiya”, “Ensiklopedik ekoloji lüğət”, “Torpaq coğrafiyası”, “Geodeziya”, “Hərbi topoqrafiya və geodeziyanın əsasları” və başqa kitablar respublikamızın müxtəlif ali məktəblərində müəllimlərin, “Torpaqşünaslıq”, “Ekologiya”, “Aqrokimya”, “Yerquruluşu və torpaq kadastrı” ixtisasları üzrə təhsil alan tələbələrin istifadəsinə verilmişdir.

Akademik Qərib Məmmədov Beynəlxalq Noosfer, Beynəlxalq Ekoenergetika, Rusiyanın Ekologiya, Təbiət Elmləri, Türk Dünyası Beynəlxalq elmlər akademiyalarının həqiqi üzvü, Beynəlxalq Mühəndislik Akademiyasının müxbir üzvü, Ümumdünya Torpaqşünaslıq Cəmiyyətinin ömürlük üzvü, Rusiya və Moldova torpaqşünaslar cəmiyyətlərinin üzvü, Azərbaycan Torpaqşünaslar Cəmiyyətinin prezidenti, Avrasiya Torpaqşünaslar Cəmiyyətləri Federasiyasının həmsədri və Akademik Həsən Əliyev adına Ekologiya Fondunun sədridir.

O, “Azərbaycan Torpaqşünaslar Cəmiyyətinin Əsərləri Toplusu”nun baş redaktoru, “Həyat Elmləri və Biotibb” jurnalının, “Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri”, “Azərbaycan Texniki Universitetinin Elmi əsərləri” və “Azərbaycan Milli Aerokosmik Agentliyinin Xəbərləri” jurnalları redaksiya heyətlərinin üzvüdür. Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən, Milli Ensiklopediya Şurasının üzvü, Azərbaycan Respublikası Milli Atlasının məsul katibidir. Akademik Qərib Məmmədov həmçinin uzun illər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert şurasının üzvü olmuşdur.

Akademikin işıqlı ömür yoluna, zəngin elmi fəaliyyətinə nəzər yetirdikdə həyatının 50 illik bir dövrünün Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlı olduğunu görürük. Qərib Məmmədov 1972-1980-ci illərdə Azərbaycan EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Torpaqların aqroekologiyası və bonitirovkası laboratoriyasının kiçik elmi işçisi, 1980-1984-cü illərdə baş elmi işçisi, 1984-1994-cü illərdə isə laboratoriya rəhbəri vəzifələrində çalışmış, 1994-2000-ci illərdə institutun direktoru, eyni zamanda ixtisaslaşdırılmış müdafiə şurasının və elmi şurasının sədri olmuşdur. 2011-2016-cı illərdə AMEA Aqrar Elmlər Bölməsinin akademik-katibi və AMEA Rəyasət Heyətinin üzvü seçilmişdir. 2016-cı ildən indiyədək AMEA-nın aqrar məsələlər üzrə müşaviridir.

2015-ci ildə AMEA-nın 70 illik yubileyi münasibətilə hazırlanmış xatirə medalı ilə, Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2017-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında aqrar elmin inkişafındakı xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edilmişdir.

Təbii sərvətimiz olan torpaqlarımızın, ekologiyamızın qorunması uğrunda əsl fədai kimi çalışmış akademik Qərib Məmmədov 75 illik həyatının mənasını elmə, dövlətçiliyimizə xidmət etməkdə görən, yüksək insani dəyərlərə, tükənməz elmi potensiala malik tanınmış alimdir. O, bu gün də elmi və pedaqoji fəaliyyətini uğurla davam etdirərək, Azərbaycan elminin gələcəyi üçün böyük bir miras qoymaqdadır. Əminliklə demək olar ki, Qərib Məmmədovun rəhbərliyi ilə yetişən gənc mütəxəssislər məhz bu elm təşnəsindən bəhrələnərək böyük müvəffəqiyyətlərə imza atacaq, Azərbaycanın işıqlı gələcəyinə öz dəyərli töhfələrini verəcəklər.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

# «Biz ermənilər İlham Əliyevin şərtləri ilə artıq razılaşmalıyıq»

## Azərbaycan Prezidentinin son bəyanatları Ermənistanda böyük narahatlığa səbəb olub

*Əvvəli 1-ci səh.*

O yazıb: “Acı reallıq olsa da, qəbul edək ki, Paşinyanın pafoslu çıxışlarına, onun aktyorluğuna yalnız Ermənistanda inanırlar. İlham Əliyev Bakıdan növbəti dəfə Paşinyana, Sarkisyana, Koçaryana od püskürdü, bizimkilər isə hakimiyyəti qorumağın və hakimiyyətə gəlməyin yollarını axtarırlar”.

Aravik Vardanyan adlı “Feysbuk” istifadəçisi İlham Əliyevin müsahibədə səsləndirdiyi fikirlərin yer aldığı xəbərə münasibət bildirib. İrəvan Dövlət İqtisad Universitetinin tələbəsi olduğunu qeyd edən istifadəçi rəyində yazır: “Ötən zaman da göstərir ki, təəssüflər olsun ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır. Düşmən ölkənin rəhbərinin açıqlamaları bir erməni gənci olaraq məni çox qıcıqlandırdı. Görəsən bundan sonra Paşinyan Əliyevə hansı üzlə cavab verəcək? Yəqin ki, bundan sonra da cavab verə bilməyəcək. Çox təəssüf və qıcıq hissi ilə deyirəm ki, Paşinyan İlham Əliyevə davamlı şəkildə uduzur”.

### “İlham Əliyev bütün sahələrdə Ermənistan üçün böyük qorxu yaradıb”

“Feysbuk” sosial şəbəkəsində Gevorq Manusyan adlı biri iki yüz minlik bəyənməsi olan səhifədə şərh yazaraq Azərbaycan Prezidentinin müsahibəsinin yer aldığı videoçarxa rəy bildirib: “İlham Əliyev yenə çox açıq mesajlar verdi. Paşinyanın İlham Əliyevdən çəkdikləri nədir? Çox qorxulu bir vəziyyətdir. Çətin bir də Artsaxı (red-Qarabağ) görək”.

Roman Piloyan adlı istifadəçi “İnstaqram” sosial şəbəkəsində xəbər portallarından birində İlham Əliyevin “Unutmamalıdırlar ki, İkinci Qarabağ müharibəsindəki kimi, kimin onlara yardım edəcəyindən asılı olmayaraq, biz istədiyimizə nail olacağıq və heç kim bizi dayandıra bilməz, heç nə bizi dayandıra bilməz” fikirlərinin əks olunduğu videogörüntüyə münasibət bildirib: “Dostlar, gəlin gördüklərimizi açıq şəkildə etiraf etməkdən çəkinməyək. Çox gülməlidir, elə deyilmi? İlham Əliyev bütün sahələrdə Ermənistan üçün böyük qorxu yaradıb. Azərbaycan əsgəri qarşısında duruş gətirməyən erməni əsgərlərinin səngərlərdə silahlarını qoyub qaçmalarını görməkdən bezmişik. Orduya xidmətdən yayınmaq məqsədilə ölkəni tərk etməkdən təngə gəlmişik. Bunun ən böyük səbəbkarı isə hakimiyyətdir”.

### “Vətənə biz yox, Paşinyan və onu müdafiə edənlər xəyanət edirlər”

Poxos Poxosyanın “VKontakte” sosial şəbəkəsində Prezident İlham Əliyevin açıqlamalarının yer aldığı xəbərin rəy bölümündə Paşinyanın şəklini paylaşaraq “Ermənistanı sizinlə daha parlaq gələcək gözləyir” şərhi çoxsaylı tənqidlərə, təhqirlərə tuş gəlib. Karen Melikyan adlı istifadəçinin bu fotoya şərhi isə daha çox bəyənmə toplayıb: “İlham Əliyev bizim Paşinyanı informasiya müharibəsində də məğlub etməkdə davam edir. Müxtəlif sosial qruplarda “klaviatura qəhrəmanları” çoxsaylı statuslar və şərhlərlə bildirirlər ki, belə çıxış etməklə Nikolu Əliyev qarşısında çox aşağı səviyyəyə salırsınız. Vətənə xəyanət edirsiniz. Vətənə biz yox, Paşinyan və onu burada müdafiə edənlər xəyanət edirlər. Neyləməliyik? Ermənistan məhv olur, susmalıyıq?”

Araik Avetisyan adlı istifadəçi “Tviter”də Prezident İlham Əliyevin “4r.am” saytında yerləşdirilən “Ancaq yenə də deyirəm, elə bilməsinlər ki, biz daim onlardan sülh tələb edəcəyik. Biz, sadəcə olaraq, regionun gələcəyi naminə və müharibə riskinin sıfıra endirilməsi naminə bu təklifi edirik. Yenə də deyirəm, əgər Ermənistan buna hazır deyilsə, onda bu, olmayacaq. Olmasa nə olacaq? Heç nə. Biz nə itirəcəyik? Heç nə itirməyəcəyik, nə bu gün, nə sabah” paylaşımına belə reaksiya verib: “Sülhü görəsən bizim alkaş baş nazirimiz niyə istəmir ki? Özüm də Zəngəzurdanam. Zəngəzur bu anda regionun geosiyasi mərkəzidir. İlham Əliyevi bu mövzuda biz də dəstəkləyirik. Biz ermənilər artıq İlham Əliyevin şərtləri ilə razılaşmalıyıq. Sülh müqaviləsinin imzalanması, dəhlizin açılmasını çox böyük səbirsizliklə gözləyirik. Bu dəhliz sayəsində ağ günə çıxacağıq”.

### “Ağıllı düşmən ağılsız baş nazirimizi və bədbəxt dövlətimizi məhv edir”

“İravnuk” qəzeti “İnstaqram” səhifəsində Azərbaycan Prezidentinin Sarkisyan və Koçaryan barədə səsləndirdiyi “Siam əkizləri” başlığı daha çox bəyənmə toplayıb. İstifadəçilərdən bir çoxu bu paylaşıma gülüş işarəsi qoyublar. Rəy bildirənlərdən Albert Nersisyanın Azərbaycanı, onun Prezidentini özünə düşmən sayan fikirləri nə qədər erməni şovinizmini əks etdirsə də, əslində, həqiqəti göstərir: “Bizi İlham Əliyevə xidmətdə, onu sevməkdə günahlandırırlar. Heç bir erməni o Prezidenti sevmir və sevə də bilməz. Onun ölkəsi də, xalqı da düşməndir, özü də düşməndir. Amma axı ağıllı düşməndir. Bizim ağılsız keçmiş prezidentlərimiz və hazırkı baş nazirimiz kimi öz xalqını ac qoymur, müharibədə fərarilik etmir. Görün Azərbaycan hansı səviyyədədir. 28 il əvvəl az qala Bakıya çatırdıq. Amma indi görün nə gündəyik. Artıq İrəvanda da qorxaraq oturmuşuq. Biz Serj Sarkisyanı, Paşinyanı tənqid etməklə İlham Əliyevə, Azərbaycana, düşmənlərimizə xidmət etmirik, Ermənistana, övladlarımızın daha sakit və xoşbəxt yaşamasına çalışırıq. Ağıllı düşmən ağılsız baş nazirimizi və bədbəxt dövlətimizi məhv edir, budur reallıq”.

Bütün bunlar əsl həqiqətlərin nədən ibarət olduğunun artıq erməni cəmiyyəti tərəfindən də dərk olunduğunu aydın nümayiş etdirir. İndi anlamağa başlayıblar ki, Ermənistanın acınacaqlı vəziyyətə düşməsinin əsas səbəbləri 30 ilə yaxın davam edən işğalçılıq siyasəti və buna görə Azərbaycanın gördüyü tədbirlər idi.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# “Omikron” ştamı Avropa ölkələrində sürətlə yayılır

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada COVID-19-a təsdiqlənmiş yoluxma hallarının sayı 305 milyonu ötüb. Ən çox yoluxma halı ABŞ-da olub.

Sonrakı sıraları Hindistan, Braziliya, Böyük Britaniya və Fransa tutub. Ən çox ölüm halı da ABŞ-da qeydə alınıb. İkinci yerdə Braziliya, üçüncü yerdə isə Hindistan qərarlaşıb. Ondan sonra Rusiya və Meksika yer alıb.

Əksər ölkələrdə ümidlə iki ilə yaxındır ki, qlobal bəlaya çevrilmiş koronavirusun zəifləyəcəyi və tədricən də geri çəkiləcəyi xəbərlərinin gözləndiyi bir vaxtda dünyanın başının üstünü yeni ştam - “Omikron” alıb. Artıq ölkəmizdə də aşkar olunmuş koronavirusun bu ştamı əksər Avropa ölkələrində sürətlə yayılmaqdadır.

Ümumdünya Səhiyyə Təşkilatı Avropa regional bürosunun rəhbəri Hans Klüge yaxın 6-8 həftə ərzində Avropa əhalisinin 50 faizinin koronavirusun “Omikron” ştamına yoluxacağını söyləyib. O, regionun 53 ölkəsindən 50-sində “Omikron” ştamı qeydə alındığını diqqətə çatdırıb: “Bu ilin birinci həftəsində regionda 7 milyon yeni yoluxma qeydə alınıb. Bu, əvvəlki həftə ilə müqayisədə iki dəfə çoxdur. Qərbi Avropada və Balkanlarda bu ştam dominant olmağa başlayıb. Bu tempdə davam edəcəyi təqdirdə 6-8 həftə ərzində Avropa əhalisinin 50 faizi bu ştama yoluxacaq”.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev KİV-ə açıqlamasında bildirib: “Bu virusla bağlı əvvəlcədən proqnoz vermək doğru deyil. Baxmayaraq ki, bu xəstəliyin daha çox yayılma ehtimalı var”.

TƏBİB-in rəsmisi koronavirusun “Delta” ştamı ilə müqayisədə “Omikron”dan xəstəxanada yatma müddətinin az olduğunu bildirib: “Amma sürətli yayılma ehtimalı olduğuna görə, bu baxımdan xəstəxanaya yerləşmək ehtiyacı dolayı yolla arta bilər. Bu da epidemioloji vəziyyəti ağırlaşdırır. Hazırda vəziyyət stabildir, həkimlərin də çox ciddi təcrübəsi var. Peyvənd prosesi də sürətli şəkildə davam edir. Peyvənd statusundan asılı olaraq, xəstəliyin yayılmasının qarşısı alına bilər. Nə qədər çox insanda immunitet formalaşarsa, biz bu dalğanı da rahatlıqla keçə bilərik”.

Koronavirusun başqa ştamlarına nisbətən daha tez yayılan “Omikron”dan uşaqların qorunması barədə danışan həkim-infeksionist Ramin Nəriman deyib: “Omikron”un əlamətləri arasında boğaz ağrısı, yüngül qızdırma və yorğunluq var. “Omikron” COVID-19-un digər ştamları kimi uşaqlarda hər hansı bir təhlükə yaratmır. Onun uşaqlarda hər hansı bir ağırlaşma yaratdığı demək olar ki, müşahidə olunmur və ya çox nadir hallarda olur. “Omikron” ştamında müəyyən fərqləndirici əlamətlər var. Məsələn, xəstələr daha çox başağrılarından, burun tutulması, zökəm əlamətləri, dərman müalicəsinə tabe olmayan öskürək tutmalarından şikayət edirlər. Ağciyər zədələnməsi nisbətən az olur və ləng zədələnmə baş verir”.

Həkimlər diqqətə çatdırıblar ki, uşaqların tənəffüs yolları böyüklərdən daha kiçik olduğuna görə azyaşlılar arasında virus daha tez yayıla bilər.

“Omikron” ştamına yoluxan uşaqların müalicəsinin əvvəlki ştamların müalicəsində istifadə olunan üsullarla aparılması nəzərdə tutulub. İndiyədək yayıldığı ölkələrdə aparılan statistika göstərir ki, yeni ştamın öldürücülük təsiri “Delta” ilə müqayisədə zəifdir. Həkimlər xüsusilə uşaqların sosial məsafə gözləməsini, tibbi maska taxmasını və kütləvi yerlərdən uzaq olmasını məsləhət görürlər.

Mütəxəssislər “Omikron” ştamının yeni növ koronavirus (COVID-19) infeksiyasının digər ştamları ilə müqayisədə daha yoluxucu olduğunu, sürətlə yayıldığını nəzərə almağı tövsiyə edirlər. Məsləhət görürlər ki, vətəndaşlar koronavirusun başqa ştamları ilə mübarizədə olduğu kimi, “Omikron”dan da qorunmaq üçün kütləvi toplaşmalardan bacardıqları qədər uzaq durmalı, qapalı məkanlada tibbi maskadan istifadə etməli, sosial məsafə saxlamalıdırlar. Eyni zamanda fərdi gigiyenik qaydalara əməl etməyi unutmamalıdırlar. Bu tədbilər koronavirusun yeni ştamlarından müəyyən qədər qorunmağa kömək edir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) infeksion xəstəliklər üzrə işçi qrupunun üzvü, həkim-infeksionist Natiq Əliyev həmçinin Azərbaycanda yeni aşkarlanmış “Omikron” ştamından müdafiə üçün peyvəndləmənin əhəmiyyətini diqqətə çatdırıb. O, vaksinasiyanın ən effektiv qoruyucu vasitə olduğunu qeyd edib.

Həkim-infeksionist deyib ki, koronavirusun “Omikron” ştamı digərlərindən fərqli olaraq daha az təhlükəlidir və əsasən gənclər arasında yayılır: “Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, həmin ştamla xəstələnənlər arasında ölüm faizi aşağıdır. İstənilən halda xəstəliyə eyni həssaslıqla yanaşmaq lazımdır. Unutmaq olmaz ki, COVID-19 əleyhinə kütləvi immunitetin yaranması pandemiyanın sonlanması və normal həyatın geri qayıtması üçün vacib şərtdir. Kütləvi immunitet isə yalnız kütləvi vaksinasiya nəticəsində yarana bilər. Ona görə də vətəndaşlar məsuliyyətli davranaraq vaksinasiyada aktiv iştirak etməlidirlər. İki doza peyvənd almış vətəndaşlar 5 aydan sonra “buster” doza ilə peyvəndlənərək orqanizmlərində koronavirus əleyhinə yaranmış anticisimlərin miqdarını artıra bilərlər. Belə olan halda koronavirusla mübarizədə qalib gələcəyik.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***






# Lerik artıq ucqar dağ rayonu sayılmır

## Müasir infrastruktur, fasiləsiz qaz, işıq, su və bir də işləyib qazanmaq üçün yaradılan şərait leriklilәri doğma torpağa daha sıx bağlayıb

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları, məlum olduğu kimi, ölkənin inkişafında böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, bölgələrin potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.




Dövlət proqramları ölkənin hər yerində olduğu kimi, Lerik rayonunda da uğurla icra edilmişdir. Rayonda müasir infrastruktur yaradılmış, təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa edilmiş, sahibkarlığın inkişafı yeni mərhələyə qədəm qoymuş, yeni avtomobil yolları inşa edilmiş, qaz və su xətləri çəkilmiş, elektrik təsərrüfatı yenilənmişdir.

Leriklilәri ən çox məmnun edən rayonda yeni iş yerlərinin açılmasıdır. Rəqəmlərə nəzər salaq: 2019-cu ildə rayon üzrə 1231, 2020-ci ildə 1722, 2021-ci ildə isə 1284 iş yerləri yaradılmışdır. Ümumilikdə 2003-2021-ci illər ərzində rayon üzrə 17,5 min yeni iş yeri açılmışdır ki, onun da 40 faizdən çoxu daimidir.

Sosial mövzuya aid başqa bir fakt: rayonda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2020-ci ilin sonlarından etibarən 40-dan çox fərdi yaşayış evinin tikintisinə başlanılmışdır. Artıq 20-dən çox yaşayış evi sakinlərin istifadəsinə verilmişdir. Digər evlərin tikintisi isə bu il üçün nəzərdə tutulmuşdur. Bundan başqa, Fövqəladə Hallar Nazirliyi tərəfindən təbii fəlakət nəticəsində fərdi yaşayış evləri qəza vəziyyətinə düşmüş vətəndaşlar üçün 30-dan çox fərdi yaşayış evi inşa edilmişdir.

Rayon üzrə təhsil müəssisələrinin də 80 faizdən çoxu yenidən tikilmiş və ya əsaslı təmir olunmuşdur. Təkcə 2019-2020-ci illər ərzində rayonda 20, 2021-ci ildə isə 2 yeni modul tipli məktəb binası inşa edilmişdir. Lerik şəhər V.İbrahimov adına inteqrasiya təlimli internat tipli gimnaziyanın tədris korpusu əsaslı təmir edilmiş, yeni yataqxana, yeməkxana və idman korpusu inşa olunmuşdur. Heydər Əliyev Fondu isə Piran kəndində 75 yerlik uşaq bağçası inşa etmişdir.

Mastayıl-Lerik alternativ su xəttinin çəkilməsi başa çatdırılmışdır. Prezidentin sərəncamı ilə "Azərsu" ASC-yə Geskon, Sors, Molalan və Şingədulan kəndlərinə su xətlərinin çəkilməsi üçün 1 milyon manat vəsait ayrılmışdır. Suyun çəkilməsi üçün əsas mənbə Şivlə və Biləvər kəndlərindən 5-6 kilometr məsafədə - meşə massivində yerləşən Şüpək bulağı və Molalan kəndindən 4-5 kilomert məsafədə yerləşən Alaşar çayı seçilmişdir. Kəndlərin yaxınlığında su anbarı inşa edilmiş, kənddə evlərə yaxın məsafələrdə bulaqlar quraşdırılmışdır.

Bu sahənin davamı: ölkəmizdə fəaliyyət göstərən Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyəti təşkilatı ilə birgə rayonun Siyov, Züvüç kəndlərinə su xətləri çəkilmiş, kəndlərin hər birində suyun əhaliyə çatdırılması üçün 36 tonluq anbarlar inşa edilmişdir.

Azərbaycan Prezidentinin Lerikə ən böyük hədiyyələrindən biri də rayona "mavi yanacağ"ın verilməsidir. Dövlət başçısının qayğıkeşliyi və diqqəti ilə artıq rayonun 56 yaşayış məntəqəsi tam qazlaşdırılmışdır. Amma bu, son deyil, rayonda qazlaşdırma davam edir.

Elektrik enerjisinə gəldikdə, ötən il "Azərişıq" ASC tərəfindən Çayrud, Lüləkəran və Orand kəndlərinin elektrik təsərrüfatlarında aparılan yenidənqurma işləri davam etdirilmiş, elektrik dirəkləri yeniləri, xətlər isə sip kabelləri ilə əvəz edilmiş, Zəriküməco və Siyov yarımstansiyasının tikintisi başa çatdırılmışdır. Kəndlərdə müasir transformatorların quraşdırılması da nəzərdə tutulur.

Ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan xalqının illərdir səbirsizliklə gözlədiyi Zəfər salnaməsini 44 gün ərzində tarixə yazaraq Qələbə sevincini bizə bəxş etdi. Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu, vətən oğulları öz canları, qanları bahasına torpaqlarımızı düşmən əsarətindən azad etdilər.

Vətən müharibəsində həlak olan lerikli şəhidlərin ailələri, yaralanan qazilər, ordudan tərxis edilən əsgər və zabitlər rayon icra hakimiyyəti tərəfindən nəzarətə götürülmüşdür. Vaxtaşırı onların problemləri araşdırılır, həlli mümkün olan məsələlər operativ həll edilir, digər problemlərin həlli ilə bağlı əlaqədar qurumlar qarşısında məsələ qaldırılır. Qəhrəman övladlarımızın adlarının əbədiləşdirilməsi üçün də rayonda silsilə tədbirlər həyata keçirilir.

Lerikin iqtisadiyyatında heyvandarlıq mühüm yer tutur. Yeni cins mal-qaranın yetişdirilməsi ilə əlaqədar 2021-ci ildə 723 baş heyvanda süni mayalanma aparılmış, 1125 baş sağlam buzov əldə edilmişdir. Bu gün rayonda 39 min baş qaramal, 112 min baş davar bəslənilir. Ət, süd, yun, yumurta istehsalı üzrə proqnozlara da əməl olunur.

Bitkiçiliyə gəldikdə, rayon üzrə ötən il 2 min 720,5 hektardan 6 min 344,6 ton taxıl, 343,5 hektardan 4 min 449,6 ton tərəvəz, 1505 hektardan 19 min 22,8 ton kartof, 530,9 hektardan 1326 ton meyvə yığılmışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

---

## "Azərenerji" ASC 110 kV-luq ikidövrəli "Cəbrayıl-Qubadlı" Elektrik Veriliş Xəttinin 330 kV-luq "Cəbrayıl" yarımstansiyasına qoşulma və elektrikquraşdırma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56; e-mail: **araz.mammadzada@azerenerji.gov.az**).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda, təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təklifi isə 09 mart 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına - Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## "Azərenerji" ASC Kəlbəcər rayonunda "Kəlbəcər-3" KSES-in yenidənqurma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az**).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda, təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təklifi isə 09 mart 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına - Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## "Azərenerji" ASC Kəlbəcər rayonunda "Meydan-2" KSES-in yenidənqurma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az** ).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda, təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təklifi isə 09 mart 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına - Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## "Azərenerji" ASC Kəlbəcər rayonunda "Tərtər-2" KSES-in yenidənqurma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: **azad.mammadov@azerenerji.gov.az** ).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda, təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, su elektrik stansiyaların, hidroqovşaqların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 fevral 2022-ci il saat 15:00-a qədər, bank təminatını və tender təklifi isə 09 mart 2022-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına - Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 10 mart 2022-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

◆ Dünya gündəmi

# İlk addımı kim atacaq?

## Rusiya-NATO Şurasının iclası yenə də nəticə vermədi



2019-cu ildən bəri ilk dəfə Brüsseldə keçirilmiş NATO Şurası ilə Rusiya arasında ilk iclas ciddi nəticə vermədi. Mümkün irəliləyiş yalnız gələcək danışıqlar məsələsində qeydə alındı.

Şimali Atlantika Alyansının baş katibi Yens Stoltenberqin mətbuat konfransında verdiyi məlumata görə, NATO Moskvaya Avropada raket silahları ilə bağlı qarşılıqlı və yoxlanıla bilən məhdudiyyətlər də daxil olmaqla bir sıra məsələlər üzrə görüşlər keçirməyə hazır olduğunu bildirib.

"NATO iclasda aydın şəkildə bildirib ki, biz müxtəlif mövzuların geniş dairəsinə, o cümlədən raket silahlarına və Avropada onlarla bağlı həyata keçirilən qarşılıqlı məhdudiyyətlərə həsr olunmuş bir sıra görüşlər planlaşdırmağa hazırıq", - deyə Stoltenberq vurğulayıb.

Baş katibin dediyinə görə, Rusiya tərəfi, öz növbəsində, bildirib ki, hələlik bu cür müzakirələrin tarixini müəyyənləşdirməyə "hazır deyillər". NATO rəhbəri əlavə edib ki, Moskva bu məsələyə qayıtmaq və gələcək görüşlərin mümkün qrafikini səsləndirmək üçün vaxt istəyib.

Alyans Rusiya ilə silahlara nəzarətin bütün növlərini müzakirə etməyə razıdır, lakin təhlükəsizliyin baza prinsipləri ilə bağlı kompromislərə getməyəcək.

### Ciddi fikir ayrılıqları var

Alyansın mənzil-qərargahında danışıqlar təxminən dörd saat davam edib. İştirakçıların sözlərinə görə, müzakirə asan olmayıb. Stoltenberq təsdiqləyib ki, əsas mövzular Rusiya qoşunlarının Ukrayna sərhədlərinə gətirilməsi və Avropada təhlükəsizlik arxitekturasına dair Moskvanın mövqeyi ilə bağlı olub.

"NATO üzrə müttəfiqlərlə Rusiya arasında bu məsələlərlə bağlı ciddi fikir ayrılıqları mövcuddur və bu fikir ayrılıqlarının aradan qaldırılması asan olmayacaq", - deyə Yens Stoltenberq qeyd edib. "Lakin NATO üzrə bütün müttəfiqlərin Rusiya ilə bir masa arxasına əyləşmələri müsbət siqnaldır".

Ukrayna ətrafında vəziyyətə ayrıca toxunan Stoltenberq vurğulayıb ki, əgər Rusiya Ukrayna tərəfinə qarşı təcavüzü davam etdirərsə, NATO özünün Şərqdəki müttəfiqlərinə əlavə qoşunlarını göndərə bilər.

Bununla yanaşı, o, "Avropada yeni silahlı münaqişənin real riski" haqda xəbərdarlıq edib. Lakin NATO belə bir ssenarinin qarşısını almaqdan ötrü mümkün hər şey edəcək".

Stoltenberq RF XİN başçısının müavini Aleksandr Qruşko və RF Müdafiə nazirinin müavini general-polkovnik Aleksandr Fominlə təmaslarını "çox ciddi və birbaşa fikir mübadiləsi" kimi xarakterizə edib.

Şimali Atlantika Alyansının rəhbəri təsdiq edib ki, Ukrayna öz gələcək planları barədə müstəqil qərar qəbul etmək hüququna malikdir və NATO öz qapılarını yeni üzvlər üçün açıq saxlayır.

Brüsseldə keçirilmiş danışıqların yekunlarını Rusiya nümayəndə heyətinin üzvləri də şərh ediblər. Xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirib ki, Şimali Atlantika Alyansının genişləndirilməsi prosesi Moskva üçün "qəbuledilməz risklər" yaradır və bu risklərin "qarşısı alınacaq". Qruşkonun dediyinə görə, danışıqlar zamanı Rusiya tərəfi aydın, birbaşa şəkildə bildirib ki, gələcəkdə eskalasiyaya yuvarlanma Avropanın təhlükəsizliyi üçün ən gözlənilməz və ağır nəticələrə gətirib çıxara bilər. Rusiya xarici siyasət idarəsinin nümayəndəsi həmçinin NATO-nun bir sıra təlimlərinə nüvə komponentinin daxil edilməsi ilə bağlı Moskvanın narahatlığını qeyd edib.

Ukraynadakı vəziyyətdən danışan rusiyalı diplomat əmin olduğunu bildirib ki, alyans bu ölkəyə istənilən hərbi yardımı dayandırmalıdır. Rusiya XİN başçısının müavini hesab edir ki, "Kiyevdəki hakimiyyəti Minsk razılaşmasına əməl etməyə məcbur etməklə" vəziyyətin normallaşdırılması mümkündür. Bununla yanaşı, Moskva NATO yanında diplomatik missiyasının bərpasını istisna etməyib, əgər alyans kollektiv təhlükəsizliyin təmininə "yanaşmaları dəyişərsə".

Rusiya müdafiə nazirinin müavini Aleksandr Fomin isə öz növbəsində bildirib ki, Rusiya ilə NATO arasında münasibətlər "kritik aşağı səviyyədədir". Fomin vurğulayıb ki, alyans Avropada "qabaqcıl bazalaşma kontingentlərinin" genişləndirilməsini istisna etməlidir. Bundan başqa, NATO Avropa ərazisində orta və kiçikmənzilli yeni Amerika raketlərinin yerləşdirilməsindən imtina etməlidir.

### 2019-cu ildən bəri ilk iclas

